www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  19 aprel 2018-ci il  Cümə axşamı № 84 (6973)  Qiyməti 60 qəpik

**Xəbər**

## Cəlilabadda məktəbin xidmətçisini zorlayan müəllim tutuldu

yazısı səh.14-də

**Gündəm**

### Köhnə hökumət üzvləri müvəqqəti vəzifədə qaldı



Yeni hökumətin formalaşmasından sonra ən azı 10 rayonun icra başçısının da vəzifədən çıxarılacağı deyilir

yazısı səh.5-də

### İlqar Məmmədovun partiyasından Sərdar Cəlaloğluna sərt cavab

yazısı səh.4-də

### Ermənilər Ağcabədi sakinini yaraladı - vəziyyəti ağırdır

yazısı səh.2-də

### Səfirliklərin ərazisində hansı ölkənin qanunları keçərlidir...

yazısı səh.4-də

### ABŞ Dövlət Departamentindən Sərkisyan rejiminə bəraət kimi bəyanat

yazısı səh.7-də

### İyunda Türkiyədə növbədənkənar prezident və parlament seçkiləri keçiriləcək

yazısı səh.2-də

### Sərkisyanın baş nazirliyi Ermənistanın sülhə gələcəyi ehtimalını dəfn etdi

yazısı səh.11-də

### Əhalinin gəlirləri artıb - nəyin hesabına...

yazısı səh.12-də

### "BP-Azərbaycan" ətrafında qalmaqal böyüyür

yazısı səh.12-də

### Tikinti materialları bahalaşıb - səbəblər...

yazısı səh.13-də

### Lombard sahibi 122 nəfərin qızılını götürüb Gürcüstana qaçdı

yazısı səh.14-də

## Prezident and içdi: Güclü ölkə, güclü ordu naminə...

# İLHAM ƏLİYEVİN YENİ PREZİDENTLİK MÜDDƏTİNİN SENSASİON MESAJLARI

Andiçmə mərasimində dövlət başçısı ölkənin tündləşmiş siyasi ab-havasını da dəyişə biləcək açıqlamalar verdi; prezident demokratik islahatların davamlı olacağını, opponentlərinin təkliflərinə diqqət ediləcəyini dedi




yazısı səh.3-də

## Bakı müharibə hazırlığını gücləndirir - yeni silahlar gəlir

"Azərbaycana "İsgəndər"dən üstün, yüksək dəqiqlikli "Polonez" kompleksləri gətirilir - düşmən təlaşda; **rusiyalı politoloq:** "Ermənistan özünü o dərəcədə ikiüzlü aparır ki, Putinin səbri tükənə bilər..."

yazısı səh.8-də



*Fəzail Ağamalı:*

**"Amerikanın Azərbaycana qarşı siyasətində erməni xətti var"**

yazısı səh.5-də



*Professor Məsud Aşina:*

**"Azərbaycan cilalanmaya ehtiyacı olan almazdır"**

yazısı səh.10-da



*Elçin Mirzəbəyli:*

**"Almas İldırımı "kafir" adlandıran adam potensial İŞİD-çidir"**

yazısı səh.13-də

**19 aprel 2018**



## Ermənilər Ağcabədi sakinini yaraladı - vəziyyəti ağırdır

**Azərbaycan ərazilərini işğal altında saxlayan erməni silahlı bölmələri bu gün Ağcabədi rayonunun Qiyaməddinli kəndini atəşə tutub. APA-nın Qarabağ bürosunun məlumatına görə, Yuxarı Qiyaməddinli kənd sakini, 1991-ci il təvəllüdlü Hacıyev Rahim Azər oğlu əkin sahəsində olarkən düşmən tərəfindən açılan atəş nəticəsində güllə yarası alıb.**

Xəstəxanaya yerləşdirilən R. Hacıyevin vəziyyəti qənaətbəxşdir.

Müdafiə Nazirliyindən APA-ya faktı təsdiq edərək bildiriblər ki, son günlər Ermənistanda baş verən hadisələr fonunda qarşı tərəf qoşunların təmas xəttində təxribatların sayını artırıb. Düşmən hətta mülki obyektlərə və əhaliyə atəş açmaqdan belə çəkinmir.

Ermənilərin odlu silahla yaraladığı 27 yaşlı Rahim Hacıyevin bel nahiyəsində olan qəlpəni götürmək mümkün olmayıb.

Ağcabədi Mərkəzi Rayon Xəstəxanasının Cərahiyyə Şöbəsinin müdiri Vaqif Bağırov APA-ya açıqlamasında bildirib ki, qəlpənin olduğu yerdə əməliyyat aparılması həyatı təhlükə daşıdığı üçün onu xaric etmək mümkün olmayıb.

"Ağcabədi rayonunun Yuxarı Qiyamadınlı kənd sakini Rahim Hacıyev xəstəxanaya döş qəfəsinin sağ yan səthindən daxilə sirayət edən odlu silah yaralanması ilə gətirilib. Vəziyyəti ağır idi, arterial təzyiqi aşağı, şok vəziyyətdə idi. Təcilli müayinəyə aparıldı, döş boşluğunda çoxlu miqdarda qan olması, ağ ciyərin zədələnməsi aşkar edildi. Rentgen müayinəsi zamanı güllə yarasının 12-ci döş fəqərəsi ilə 1-ci fəqərə arasında diskə yaxın olduğu müəyyən edildi. Təcili qaydada əməliyyata götürüldü. Döş boşluğunda olan 300 ml qram qan götürüldü və sağ ağ ciyərin deşilmiş yeri tikilərək bərpa edildi. Xəstənin döş boşluğu drenaj edildi. Hal-hazırda xəstə süni tənəffüs aparatından ayrılıb reanimasiya palatasına köçürülüb, vəziyyəti ağırdır", - deyə o vurğulayıb.

## "2025-ci ilə qədər neft maksimum qiymətə çata bilər" - avropalı ekspert

**"Uzunmüddətli perspektivdə neftin yüksək qiyməti yalnız ABŞ üçün faydalıdır". "Report"un Rusiya bürosunun məlumatına görə, bunu "Rystad Energy" Avropa konsaltinq şirkətinin rəhbəri Yarand Ristad Moskvada keçirilən Milli Neft-Qaz Forumunda deyib.**

Onun sözlərinə görə, bu il neftin orta qiyməti təxminən 70 dollar/barel olacaq: "Neftin qiyməti artarsa, pul artıqlığı ilə əlaqədar sahəyə yatırılan sərmayələr rekord həddə çatacaq. Belə bir deyim var: "Neftçiyə 1 dollar ver və o, bunu sərmayəyə xərcləyəcək". Artıq indidən aparıcı neft oyunçuları dəniz layihələrinə ümumilikdə 200 milyard dollara yaxın vəsait ayırıblar".

Digər tərəfdən, "Rystad Energy" şirkətinin başçısı qeyd edib ki, neftin qiymətinin həddindən çox olması heç də hamını razı salmır, uzunmüddətli perspektivdə isə yalnız ABŞ üçün faydalıdır: "Artıq indi ABŞ ildə 11,4 milyon barel şist nefti istehsal edir. Qiymətin 70 dollar/barel olacağı təqdirdə, şist nefti daha çox hasil ediləcək, çünki ondan daha çox gəlir əldə ediləcək. ABŞ neft hasilatında nizamlı deyil. Rusiya və OPEC hasilatı dayandırmasa, yenə ciddi artıqlıq yaranacaq və bu, qiymətə təsir edəcək".

O, hazırda neft bazarında tsiklik dövrün dörd il olduğunu və hər şeyin olduğu kimi qalacağı təqdirdə 2025-ci ilədək neftin maksimum rekord qiymətə çata biləcəyini, bunun ardından isə qiymətlərdə uzunmüddətli azalma olacağını qeyd edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# İyunun 24-də Türkiyədə növbədənkənar prezident və parlament seçkiləri keçiriləcək

**"Bu gün Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının növbədənkənar prezident və parlament seçkiləri keçirilməsi ilə bağlı təklifini keçirdiyimiz görüşdə geniş müzakirə etdik".**



APA-nın Türkiyənin NTV telekanalına istinadən verdiyi məlumata görə, bunu bu gün Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının növbədənkənar prezident və parlament seçkilərinin keçirilməsi təklifi ilə bağlı görüşdən sonra mətbuat konfransında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdi və keçən il aprelin 16-da parlament üsul-idarəsindən prezident üsul-idarəsinə keçidlə bağlı referendumdan bəhs edən Ərdoğan deyib ki, Türkiyə prezidenti və baş nazir arasında fikir ayrılıqları olmaması səbəbindən idarəçilikdə ciddi problemlər qarşıya çıxmır: "Yeni idarəetmə üsuluna keçid zərurətə çevrilib. Dövlət Baxçalının təklifini partiyamızda geniş müzakirə etdik və müsbət qarşıladıq. Seçkinin 24 iyun 2018-ci ildə keçirilməsinə qərar verdik".

Suriya böhranı və bölgədə təhlükəsizliklə bağlı yaranan problemlərin də Türkiyədə qeyri-müəyyənliyin aradan qaldırılmasını zəruri etdiyini bildirən R. T. Ərdoğan bu seçkinin xalq və dövlət üçün xeyirli olmasını arzulayıb.

Ərdoğan ali seçki qurumunun dərhal seçki hazırlıqlarına başlayacağını da bildirib.

## Neft Fondunun aktivləri 37,6 milyard dollar təşkil edir

**Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) 2018-ci ilin yanvar-mart ayları ərzində büdcə gəlirləri 4 424,2 milyon manat, büdcə xərcləri isə 2344,2 milyon manat təşkil edib. Bu barədə Fonddan xəbər veriblər.**



2018-ci ilin birinci rübü ərzində ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 4 303,3 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 3 533,0 milyon manat, bonus ödənişləri 765,2 milyon manat, tranzit gəlirləri 5,1 milyon manat təşkil edir.

Ötən rüb ərzində Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 120,9 milyon manata bərabər olub.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-in büdcədənkənar gəliri 779,9 milyon manat təşkil edib.

Hesabat dövrü ərzində ARDNF-in 2018-ci il büdcəsinin icrası çərçivəsində 2299,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilmişdir. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 30,3 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 8,1 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 1,4 milyon manat vəsait ayrılmışdır. 0,5 milyon manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. 2018-ci ilin yanvar-mart ayları ərzində ARDNF-in idarə edilməsi ilə bağlı xərcləri 4,9 milyon manat olub.

2018-ci ilin 1 aprel tarixinə Fondun aktivləri 2018-ci ilin əvvəlinə (35 806,5 milyon ABŞ dolları) nisbətən 5,1% artaraq 37 631,7 milyon ABŞ dollarına bərabər olmuşdur. Aktivlərin artımı Fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirləri və investisiya portfelinin tərkib valyutalarının məzənnə dəyişkənliyi fərqi hesabına reallaşıb (Report).

## Türkiyədə keçmiş imam azərbaycanlı və gürcüstanlı qadınları satırmış



**Türkiyə polisi Samsun vilayətinin Ordu və Ünye qəsəbələrində əməliyyat keçirilib. Əməliyyat zamanı fahişəliklə məşğul olan 15 nəfər və onlara araçılıq edən keçmiş imam saxlanılıb.**

Virtualaz.org xəbər verir ki, bu barədə DHA məlumat yayıb.

41-i polis olan 55 əməliyyatçının qatıldığı "Roko" əməliyyatı zamanı qadınları fahişəliyə məcbur edən keçmiş imam Abdulmütalib V., Emre M., Ramadan Ş. Və Məlek E ilə Azərbaycan və Gürcüstan vətəndaşları olan 10 qadın saxlanılıb.

Tibbi müayinədən keçirilən şübhəlilər ifadələri alınmaq üçün polis bölməsinə gətirilib.



## "Metsamor" AES ciddi təhlükə mənbəyidir" - Elmar Məmmədyarov

**Azərbaycanın xarici işlər naziri vəzifəsini icra edən Elmar Məmmədyarov Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoru Yukiya Amanonu qəbul edib.**

XİN-dən musavat.com-a verilən məlumata görə, E.Məmmədyarov Azərbaycan və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) arasında mövcud effektiv əməkdaşlıqdan məmnunluğunu ifadə edərək AEBA-nın fəaliyyət və yardımının Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Görüşdə AEBA ilə Texniki Əməkdaşlıq Proqramı çərçivəsində ölkəmizdə həyata keçirilmiş 22 layihə və icra edilməkdə olan 9 layihənin Azərbaycanın inkişafı və müvafiq qurumların imkanlarının gücləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Azərbaycanın milli tədqiqat reaktorunun yaradılması, onun istifadə edilməsində və kadrların hazırlanmasında AEBA-nın dəstəyi yüksək qiymətləndirilib. Tərəflər sülh məqsədləri üçün nüvə texnologiyasının tətbiqinə toxunaraq səhiyyə, kənd təsərrüfatı, neft sənayesi kimi sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıblar.

E.Məmmədyarov nüvə reaktorlarının təhlükəsizliyi məsələsinə toxunaraq Ermənistanda yerləşən, bölgəmiz üçün ciddi təhlükə mənbəyi olaraq köhnəlmiş Çernobıl texnologiyası əsasında fəaliyyət göstərən "Metsamor" AES-in istismarından irəli gələn təhlükələri diqqətə çatdırıb. O həmçinin "Metsamor" AES-in nüvə və radioaktiv maddələrin qaçaqmalçılığı baxımdan ciddi təhlükə mənbəyi olduğunu vurğulayaraq nüvə təhlükəsizliyi konsepsiyası çərçivəsində AEBA tərəfindən bu istiqamətdə zəruri addımların atılmasının vacibliyini qeyd edib.

Görüşdə beynəlxalq nüvə təhlükəsizliyi, dinc məqsədlərlə nüvə texnologiyasından istifadə edilməsi və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

# Prezident and içdi: Güclü ölkə, güclü ordu naminə...






**Aprelin 18-də İlham Əliyev Milli Məclisdə and içərək rəsmən dördüncü müddətə prezidentlik səlahiyyətlərinin icrasına başladı. Andiçmə mərasimləri adətən formal xarakter daşısa da, səlahiyyətlərinin icrasına başlamış prezidentin səsləndirdiyi bəyanatlar hər zaman diqqət çəkir.**

# İlham Əliyevin yeni prezidentlik müddətinin sensasion mesajları

## Andiçmə mərasimində dövlət başçısı ölkənin tündləşmiş siyasi ab-havasını da dəyişə biləcək açıqlamalar verdi; prezident demokratik islahatların davamlı olacağını, opponentlərinin təkliflərinə diqqət ediləcəyini dedi

İlham Əliyev, əlbəttə ki, bu siyasi incəlikləri yaxşı bilir. Andiçmə mərasimində səsləndirilən bəyanatların təhlili də onu göstərir ki, İ.Əliyevin yeni prezidentlik müddəti üçün özünün müəllifi olduğu ideyaları, gerçəkləşdirmək istədiyi xeyli planları var. Bu ideyalar isə ölkənin siyasi şəklini də, sosial-iqtisadi həyatını da hamının hiss edə biləcəyi həddə dəyişməyə hesablanıb.

Öncə andiçmə mərasimində xüsusilə ölkənin siyasi şəklini dəyişə biləcək sensasion açıqlamalara diqqət edək.

Prezident seçki kampaniyasından danışarkən Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində müsbət meyillərə toxunub. Dövlət başçısı onunla rəqib olan namizədlər haqqında saygı ilə danışıb: “Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənib. Mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir”.

Yada salaq ki, Azərbaycanda indiyədək olan prezident seçkiləri heç də indiki kimi sakit axarda keçirilməyib, siyasi təlatümlər baş verib, hətta qan da tökülüb. Seçkinin sonunda siyasi rəqiblər bir-birinə az qala düşmən kimi baxıblar.

Əvvəlki təlatümlü seçkilər olmasa da, İ.Əliyevin andiçmə mərasimində dedikləri bu sözlər xüsusilə diqqət çəkir: “Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm”.

Prezidentin çıxışında ən diqqətçəkən məqam isə “seçki kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır” deməsidir. Bu, Azərbaycanın siyasi palitrasında tam yeni rəng, yeni çalardır. Zənnimizcə, bu, Azərbaycanın xeyli tündləşmiş siyasi ab-havasını dəyişə biləcək bəyanat hesab oluna bilər. Ənənəvi müxalifət seçkini boykot etsə də, bu bəyanat bütün demokratik düşərgəyə, eləcə də alternativ düşünən hər kəsə mesajdır.




Bəli, qeyd edilməlidir ki, prezidentin məlum müxalifət kəsimi haqda dedikləri yenə üslub etibarilə sərt olub.

“Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır” deyən prezident fikrini belə tamamlayıb: “Xalq heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun”.

Prezidentin müxalifətlə bağlı sərt mövqeyinin ardınca ölkənin demokratik inkişafı ilə bağlı məsələyə geniş yer ayırması da təsadüfi deyil.

Dövlət başçısı son çıxışlarında ardıcıl olaraq demokratik inkişafla bağlı səyləri artıracağını xüsusi vurğulayır. Andiçmə mərasimində İ.Əliyev hakimiyyətin gələcək fəaliyyətində demokratik inkişafın önəmli yer tutacağını xüsusi vurğulayıb: “Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları təmin etmişik - söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçisidir və internet Azərbaycanda azaddır. Yeni demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir”. Prezident Azərbaycanın demokratik inkişafını təftiş edən dairələrə də mesaj ünvanlayıb: “Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir, seçkilər və onun nəticələri bunu bir daha təsdiqləyir”.

Prezident bəzi beynəlxalq institutların bəzən Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etdiyi korrupsiya tənqidlərinə də ad çəkmədən cavab verib: “Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılır, bundan sonra da aparılacaq. Həm inzibati, cəza tədbirləri, həm də ən böyük effekt verən sistem xarakterli, institusional tədbirlər görülür”.



Prezidentin çıxışında, əlbəttə ki, bəzi məmurlara da xüsusi “pay” düşür ki, bunu andiçmə mərasimində bir daha elan edilməsi həm də onlara xəbərdarlıqdır.

İ.Əliyev andiçmə mərasimində iqtisadi inkişafdan danışarkən “yalnız iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilər” deyib. Prezident hakimiyyətdə olduğu illərdə Azərbaycanın iqtisadi inkişafını daima ölkənin müstəqilliyi ilə bərabər tutub. “Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilər” deyən dövlət başçısı bildirib ki, əgər sən kimdənsə asılısansa - ya kreditdən, ya da başqa dövlətdən - heç vaxt sözün əsl mənasında müstəqil siyasət apara bilməzsən. Biz iqtidarında olmayacaqsan: “Ona görə də biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq . İndi heç bir kreditə möhtac deyilik”.

Dövlət başçısı deyib ki, növbəti illərdə görüləcək işlər haqqında plan və proqramlar var: “Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar”.

İ.Əliyev xatırladıb ki, inkişafda olan ölkələr arasında Azərbaycan inkişaf indeksinə görə 3-cü yerdədir: “Bu, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar tarixi nailiyyətlərdir. Bu gün Azərbaycan iqtisadiyyatı inkişaf edir. Biz dünyada baş vermiş böhranlar zamanı da ən az itkilərlə bu böhranlardan çıxa bilmişik”.

Dövlət başçısının ordu quruculuğu ilə bağlı dedikləri də diqqət çəkir. Biz də diqqət edək: “Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika və döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, onu da biz təmin edirik və ən müasir silahlar alınır, bundan sonra da alınacaq”. Qarabağ münaqişəsindən danışan prezident bir daha vurğulayıb ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq.

Andiçmə mərasimində dövlət müstəqilliyimizlə bağlı deyilənlər də İ.Əliyevin növbəti prezidentlik dönəmindəki siyasətinə xüsusi çəki verir: “Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik”.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

**ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"ın ötən sayına verdiyi açıqlamada REAL Partiyası və onun həbsdəki rəhbəri İlqar Məmmədov haqqında sərt ittihamlar səsləndirib. Onun dedikləri qalmaqala səbəb olub. Sosial şəbəkələrdə REAL tərəfdarları ADP sədrinin ünvanına ən sərt tənqidlər dilə gətirir, bəzi hallarda hətta təhqirə belə keçilir.**

# İlqar Məmmədovun partiyasından Sərdar Cəlaloğluna sərt cavab

## Natiq Cəfərli: "O, Azərbaycan siyasətində ən qeyri-ciddi siyasətçilərdən biridir"



Natiq Cəfərli

S.Cəlaloğlu vicdan məhbusunu vaxtilə Azərbaycana xəyanət etməkdə suçlayıb.

**Sitat:** "AMİP-in özündə belə İlqar Məmmədov tanınmırdı. Bu partiyadan çıxandan sonra Amerika səfirliyində işlədi. Ondan sonra bir QHT yaratdı və orada da Azərbaycana qarşı çox xəyanətkar bir sənədə qol çəkib. Mən, İsa Qəmbər, Əli Kərimli və Pənah Hüseyn Avropa Birliyinin nümayəndələri ilə görüşəndə dedik ki, bu birliyə inteqrasiyamızda əsas hədəflərdən biri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll olunmasıdır. Onlar bizə həmin vaxt dedilər ki, siz heç vaxt Avropa Birliyi çərçivəsində Dağlıq Qarabağ məsələsini qaldıra bilməzsiniz. Səbəbini soruşduqda şok yaradacaq bu cavabı verdilər ki, siz bizə sənəd vermisiniz və bir şərtlə Avropa Birliyinə üzvlüyə razısınız ki, heç vaxt Dağlıq Qarabağla bağlı məsələ qaldırmayacaqsınız. Belə bir sənədə qol çəkmədiyimizi deyəndən sonra bildirdilər ki, sizin bir birliyiniz var, ora 29 təşkilat daxildir, sədri də İlqar Məmmədovdur, o bizə belə bir sənəd verib. Sonralar İlqar Məmmədovun özü də bunu təsdiqlədi. İqtidara alternativ deyilən İlqar Məmmədov bu qədər irəli gedib".

S.Cəlaloğlu REAL-ın nəinki hakimiyyətə qarşı, hətta Azərbaycandakı ən zəif partiyaya belə alternativ olmadığını bildirib. Eyni zamanda ADP sədri İ.Məmmədovun təşkilatının kadr potensialının olmadığını, REAL sədrinin şəxsi keyfiyyətlərinin, qabiliyyətinin, həbsdə olmasının hakimiyyətə gəlməyə cavab vermədiyini də qeyd edib.

Bu və ya digər sərt ittihamlarla bağlı REAL-ın mövqeyini aldıq. **Qurumun icraçı katibi Natiq Cəfərli** ADP sədrinə sərt cavab verdi: "Sərdar Cəlaloğlu Azərbaycan siyasətində ən qeyri-ciddi siyasətçilərdən biridir. Onun bu günə qədər səsləndirdiyi fikirlər, tezislər çox zaman gülüş doğurur. Bu baxımdan, açığı, ona ciddi cavab verməyə çox çətinlik çəkirəm. Səsləndirdiyi ittihamlarla bağlı əlində sübutlar varsa, ortaya qoysun. İlqar Məmmədov təkcə Qarabağ deyil, hətta Zəngəzurun qaytarılması məsələsində ən sərt mövqe tutan siyasətçilərdən biri olub. Beynəlxalq konfranslarda dəfələrlə İlqar Məmmədov ermənilər tərəfindən ciddi təzyiqlərə məruz qalıb. Bunun şahidi olanlar az deyil. Hətta hakimiyyətin bu günə qədər ortaya qoyduğu sərt mövqedən daha sərt mövqeyini İlqar Məmmədov bu məsələdə səsləndirib. Bir faktı deyim, 2011-ci ildə NATO-nun Qafqaz Təhlükəsizlik Konfransı olmuşdu. Orada İlqar Məmmədovun Dağlıq Qarabağın qaytarılması ilə bağlı çox sərt çıxışı oldu. Dedi ki, nəinki Qarabağı, gec-tez Zəngəzuru da ermənilər geri qaytarmağa məcbur olacaqlar. Həmin çıxışından sonra konfransda İlqara ciddi təzyiqlər olub. Türkiyəli deputatların, xüsusilə MHP-dən olan millət vəkillərinin köməyi ilə oradan çıxa bilmişdi. Sərdar Cəlaloğlu İlqar haqqında çox şeylər deyə bilər. Amma bu məsələ ilə bağlı onun mövqeyi tamamilə absurddur".

N.Cəfərli "Hamıya aydındır ki, Sərdar Cəlaloğlu seçkiyə niyə buraxıldı, o 40 min imza toplaya bilməzdi", - deyə iddia etdi: "Heç imzatoplama kampaniyası belə aparmadı. Seçkidə iştirakı onun qarşısında öhdəlik yaratdı və o da öhdəliyinə əməl edərək belə mənasız fikirlər səsləndirir. Onun dediyi sənəd Sivil Toplum Platformasi idi və orada heç REAL-ın adı da yox idi. Həmin vaxt REAL təzəcə yaranmışdı. Bu, adi bir platforma idi. Hakimiyyət Dağlıq Qarabağ münaqişəsinin həlli üçün sülh yolunu əsas sayır. Əslində düzgün də siyasət budur. Açıq şəkildə bəyan edə bilmərik ki, müharibə edəcəyik. Sərdar bəy bu mövqeyinə görə hökuməti niyə tənqid etmir? Sivil Toplum Platformasına o zaman çox nüfuzlu şəxslər daxil idi və onlar Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə tez-tez mövqelər sərgiləyirdilər. Beynəlxalq aləmin belə məsələlərdə dili, siyasi üslubu tamam fərqlidir. Sərdar bəyin yəqin bunlardan xəbəri yoxdur. Onun nə beynəlxalq aləmdə nüfuzu var, nə də beynəlxalq konfranslarda iştirak edib. Bu günə qədər yalnız daxili auditoriya üçün çıxışları olub. Onu qınamıram, köhnə fikirli, dünyadan bixəbər insandır. REAL yarandığı gündən daim doğruları söyləyib. Hər hansı daxili və xarici gücü arxasına alıb dəyişiklik etmək fikri də olmayıb. Sadəcə olaraq, Sərdar Cəlaloğlunun da daxil olduğu köhnə nəsil hər zaman dəyişikliklərin xaricdən ola biləcəyinə inanıblar. Sərdar Cəlaloğlu ilə bağlı məhkəmə sənədlərində onun xarici orqanlarla əlaqələri, görüşləri barədə məlumatlar var. Onun tipində olan siyasətçilər proseslər anlamaq iqtidarında deyillər. İlqar Məmmədovdan burada söhbət gedirsə, onu deyə bilərəm ki, nə zaman Azərbaycanda demokratik seçkilər keçiriləcəksə, REAL partiya şəklində iştirak edəcəksə, İlqar Məmmədovun nə qədər səs topladığını hamımız görəcəyik. Bunu indidən söyləmək üçün gərək Sərdar Cəlaloğlu ya Vanqa, ya da Nastradamus olmalıdır. O isə bunlardan heç biri deyil. Öncədən görmə qabiliyyəti onda olsaydı, indiyə qədər siyasətdə uğur qazanardı. Təşkilatımızın bir neçə nəfərdən ibarət olduğunu deyir, qoy desin. Buna haqqı da var. Amma ondan başqa ADP-də ikinci şəxsi tanımıram. Ən azından REAL-ın öndə gedən bir neçə isminin adını çəkə bilərəm. Bir şəxsdən ibarət olan partiyanın sədrinin bu cür fikirlər səsləndirməsi doğrudan da çox qeyri-ciddilikdir. İlqarın həbsdə olmasını heç vaxt siyasi kapitala çevirmək istəməmişik. Bunlar bizdən asılı olmayan proseslərdir. Reallıqdır ki, İlqarın beş ildən artıq qanunsuz şəkildə həbsxanada olması insanlar arasında bir simpatiya yaradıb. Həbsdə olduğu üçün İlqarın lider olduğunu heç vaxt qeyd etməmişik. Gələcəkdə elə bir partiya qurmaq istəyirik ki, şəxsə bağlı olmasın. Təəssüf edirəm ki, Azərbaycanda siyasi partiyaların hamısı şəxs üzərində qurulub. Vaxtilə ADP də güclü partiya idi. Rəsul Quliyevlə bir yerdə idilər, ondan maliyyə alırdılar. Elə ki, bu əlaqələr kəsildi, ADP yox olub getdi. Həbsdə olmaq, əlbəttə, insanın hakimiyyətə gəlməsi anlamına gəlmir. Lakin bir insanın beş ildən artıq həbsdə olması ortalıqdadır. İlqarın siyasi fəaliyyətinə o, azadlıqda olandan sonra qiymət veriləcək. Onu insanlara sevdirən şəxsinə qarşı olan ədalətsizliklərdir. Sərdar bəyin dediyi kimi, əgər İlqara simpatiya həbsi üzərindən formalaşıbsa, o zaman hökumət onu azad etsin, bir neçə aydan sonra görək bu nüfuz qalacaq, ya yox? Əgər həbsdə saxlamağa davam etsələr, bu simpatiya artan templə gedəcək. Sərdar Cəlaloğlu bu fikirləri ilə dünyadan və siyasətdən bixəbər olduğunu bir daha göstərdi. Onun siyasətlə məşğul olması, sadəcə, vaxt itkisidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Səfirliklərin ərazisində hansı ölkənin qanunları keçərlidir?

## Hüquqşünas: "Orada vətəndaşa göstərilən münasibət hər iki ölkənin qanunları, etik normalar çərçivəsində olmalıdır"

**Jurnalist Eynulla Fətullayev Bakıda İsrail səfirliyində başına gələnləri qələmə alıb. Onun sözlərinə görə, burda baş verənlər nə diplomatik etiket çərçivəsinə, nə də elementar abır-həyaya, insan tərbiyəsinə sığmır. Jurnalist qeyd edib ki, viza almaq üçün İsrail səfirliyinə gedib, lakin orada mühafizəçilər onunla kobud danışıblar:**



"Seçilmişlər"in səfirliyində qəribə macəraların uzun intizarı ilə, xeyli müddətdən bəri Azərbaycana dost ölkənin ağ-mavi bayrağının dalğalandığı Bakıdakı "Hyatt" hotelə yollanıram. Avtomobilimi park etmək istəyirəm.

"Burada avtomobil saxlamaq olmaz!", - deyə otelin mühafizə xidmətinin əməkdaşı qəzəbli şəkildə elan edir.

"Niyə orda olar, burada isə yox", - deyə sülhsevər şəkildə soruşuram və ilk xəbərdarlığımı da alıram: "Bura İsrail səfirliyidir", - deyə mühafizəçi kəlmə-kəlmə bildirdi.

"Nə olsun ki? Bax orda, yaxınlıqda, "Baksovet"də İran səfirliyi var? Hə, nə olsun ki?"

Mühafizəçi təkəbbürlə gülümsəyir:

- Sən məgər İranla İsrailin fərqini bilmirsən?"

Jurnalist yazıb ki, səfirliyin içərisində də onunla kobud rəftar olunub. O, təhlükəsizlik əməkdaşının işçisi ilə arasındakı dialoqu bu cür qeyd edib:

- Əllərini cibindən çıxart - komanda verirmiş kimi mühafizəçi bağırır.

- Anlamadım, nə?

- Sən karsan?, - deyə insana bənzər rəsmiyyətçi cavab verir.

- Mən kar deyiləm. Sən isə ədəbsizsən!

- Sən kimə deyirsən?

- Sənə!

- Rədd ol burdan... Bura İsrailin ərazisidir, - deyə bişməmiş kərpicə oxşayan şəxs deyir".

Bəs səfirliklərin səlahiyyətləri nələrdir? Oranın əməkdaşları qanuna görə beləmi davranmalıdırlar?

"Yeni Müsavat"a danışan **hüquqşünas Əsabəli Mustafayev bildirib ki, müvafiq dövlətlərin səfirlikləri onların ərazisi sayılır: "Həmin səfirliyin əməkdaşlarının, rəhbərliyinin icazəsi olmadan əraziyə heç kim daxil ola bilməz. Əlbəttə ki, orada girişdə qəbul otağı olur. Qəbul otağına isə hər bir şəxs yaxınlaşıb, ona lazım olan məlumatları soruşa, arayış istəyə bilər. Ona məlumat veriləcək, ya yox, bu, başqa məsələnin mövzusudur. İstənilən** vətəndaş müraciət etmək hüququna malikdir. Ona da müvafiq cavab verilməlidir. Lakin bu, həmin ölkənin və Azərbaycanın qanunları, etik normalar çərçivəsində olmalıdır. Kobudluq, söyüş söymək, təhqir etmək hər bir dövlətin qanununda qadağan olunub. Əgər doğrudan da ona elə bir münasibət olubsa, deməli bu, qanun pozuntusudur. Ən azı etik normaların pozulmasıdır. Heç kimə bu cür münasibət göstərmək olmaz. Fətullayev tərəfindən hansısa tələbin olub-olmamasından xəbərim yoxdur. Bəziləri düşünə bilərlər ki, bura Azərbaycan ərazisidir və istədiyimiz kimi içəri girə bilərik. Bu, əlbəttə ki, belə deyil. Eynulla Fətullayev də savadlı adamdır və yəqin ki, bundan məlumatlıdır. Səfirliyin ərazisi həmin dövlətin ərazisi hesab olunur. Onların da həmin ərazinin təhlükəsizliyini təmin etmək hüquqları var. Lakin, yuxarıda da qeyd etdiyimiz kimi, icazə yoxdursa, vətəndaş müəyyən olunmuş pəncərəyə yaxınlaşıb, ərizə, sualına cavabı ala bilər".

Hüquqşünas bildirib ki, belə vəziyyətlərdə şəxs şikayət etmək istərsə, aşağıdakı kimi davranmalıdır: "İlk növbədə Xarici İşlər Nazirliyinə bu barədə müraciət edə bilər. Əgər işdə cinayət tərkibi varsa, onu təhqir edib, döyüblərsə, o zaman Azərbaycanın hüquq-mühafizə orqanlarına da müraciət edə bilər. Çünki şəxs Azərbaycan vətəndaşıdır. Hansı ərazidə olmasına baxmayaraq, onun müdafiə olunma hüququ var".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

**Aprelin 18-də Milli Məclisdə Azərbaycan prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib. Mərasim iştirakçıları İlham Əliyevi hərarətlə qarşılayıblar.**

# Köhnə hökumət üzvləri müvəqqəti vəzifədə qaldı

## Yeni hökumətin formalaşmasından sonra ən azı 10 rayonun icra başçısının da vəzifədən çıxarılacağı deyilir

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətiriblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olunublar. Fərhad Abdullayev bildirib ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının prezidenti elan edib.

Sonra prezident İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içib: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"

Azərbaycan Respublikasının dövlət himni səslənib.

Prezident müqəddəs Qurani-Şərifə də əl basaraq and için: "Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam".

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpüb.



Daha sonra prezident İlham Əliyev geniş nitq söyləyib.

APA-nın xəbərinə görə, prezident seçkilərinin Azərbaycan xalqının iradəsini əks etdirdiyini bildirən İlham Əliyev qeyd edib ki, Azərbaycan xalqı görülən işlərə yüksək qiymət verib, görülən işlərə səs verib, inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafa səs verib.

Dövlət başçısı deyib ki, seçkilər ədalətli və şəffaf şəkildə keçirilib: "Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir (Prezidentin çıxışına başqa məqalədə geniş yer verilib-E.S).

Beləliklə, aprelin 18-dən İlham Əliyevin yeni prezidentlik dönəmi başlayıb. Prezident aprelin 18-də Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi haqqında sərəncam imzalayıb. Nazirlər Kabinetinin yeni tərkibi formalaşdırılanadək nazirlərin səlahiyyətləri saxlanıb.

Təhlilçilərin proqnozlarına görə, Nazirlər Kabinetinin köhnə üzvlərinin ən azı 3-də ikisinin əvvəlki vəzifələrində saxlanacağı gözlənilir. Çıxdaş edilməsi gözlənilənlərin sayı isə bir neçə nəfərdir. İstefaya getmiş sayılan Nazirlər Kabineti üzvlərinin bəzilərinin təlaşda olduğu barədə məlumatlar yayılmaqdadır. Onlar yeni hökumətdə yer alıb-almayacaqlarının həyəcanını yaşayırlar.

Yeni hökumətin formalaşmasından sonra prezidentin rayonların icra başçılarına da "əl gəzdirəcəyi" deyilir. Ən azı 10 rayonun icra başçısının vəzifədən götürüləcəyi yayılan məlumatlar sırasındadır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirib ki, prezident İlham Əliyev üçün yeni dövr başlayır. İlham Əliyev 7 il də Azərbaycana rəhbərlik edəcək. Bu müddətdə İlham Əliyevin üzərinə ən azı aşağıdakı vəzifələrin düşdüyünü söyləmək olar: "Birincisi, İlham Əliyev növbəti 7 ildə Dağlıq Qarabağ münaqişəsini həll etməyə çalışacaq. İlham Əliyevin hazırkı strategiyası doğrudur: Azərbaycan Ermənistanı bütün layihələrdən təcrid edir və işğalçı dövlətə qarşı təzyiqi artırır. Buna baxmayaraq, növbəti 7 ildə ən azı bir neçə rayonun azad olunması vacibdir. Bu, cəmiyyətdə İlham Əliyevə olan dəstəyi daha da artıracaq. İkincisi, İlham Əliyev iqtisadi və sosial islahatları genişləndirməlidir. Cəmiyyətdə yeni istefası reallaşmış hökumətə inamsızlıq var, illərdir vəzifədə qalan nazirlərin gənc kadrlarla dəyişdirilməsinə ehtiyac var. İqtisadiyyatda inhisar yaradan nazirlərin vəzifələrindən çıxarılması vacibdir. Ümumiyyətlə, hökumətin Birinci vitse-prezident Mehriban Əliyevaya tabe edilməsi haqqında fikirlər var. Mehriban Əliyeva üçün inhisarçı nazirləri yeni kadrlarla əvəz etməsi aktual ola bilər. Məncə, prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimində açıqladığı bəzi fikirlər də hakimiyyət içindəki dəyişikliklərin baş verəcəyinə işarə edir. Məsələn, prezident deyib ki, seçki kampaniyası zamanı rəqiblərinin qaldırdıqları məsələlərə diqqətlə baxacaq. Həmin kampaniyanı izləmişdim. Prezidentliyə namizədlər prezidenti tənqid etməsələr də, hakimiyyət strukturlarının yarıtmaz fəaliyyətinə dair müxtəlif faktlar irəli sürdülər. Deməli, prezident ona işarə edir ki, yarıtmaz fəaliyyətin səbəbləri araşdırılacaq. Bundan başqa, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev də geniş məqalə yazıb. Həmin məqalədə də hakimiyyət içindəki qüsurlar haqqında qeydlər var.

Üçüncüsü, dövlət başçısı İlham Əliyev əhali üçün icbari tibbi sığortanın tətbiqinə nail olmalıdır. Bu məsələ gecikir. Azərbaycanın yaşlı nəsli maaşının və pensiyasının əsas hissəsini həkimlərə, bahalı əməliyyatlara və dərmanlara xərcləyir. Aşağı maaşı və pensiyaları olan vətəndaşlar üçün bu, böyük xərclərdir. Hamı üçün tibbi sığortanın tətbiqi ilə problemi həll etmək mümkündür. Hakimiyyət, yeni formalaşacaq komanda, nəhayət ki, bu məsələni həll etməlidir".

Ekspertin sözlərinə görə, ən vacib məsələlərdən biri odur ki, Azərbaycanda sabitlik var, xaos yoxdur. Bu, ölkə başçısına islahatları dərinləşdirməyə və problemləri həll etməyə imkan verir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Freedom House"dən anti-Azərbaycan mövqeyi

## Fəzail Ağamalı: "Amerikanın Azərbaycana qarşı siyasətində erməni xətti var"

**ABŞ-ın "Freedom House" təşkilatı MDB ölkələrindəki demokratiyanın vəziyyəti barədə yeni məruzə yayıb. Həmin məruzədə ümumilikdə keçmiş SSRİ məkanında (Baltikyanı ölkələr xaric) demokratik durumun dərəcəsinin daha da aşağı düşdüyü qeyd olunur.**

Aprelin 11-də "Nations in Transit-2018" adı altında yayılan məruzədə sosialist ölkələrindəki demokratiyanın səviyyəsinə 7 ballıq şkala ilə qiymət verilib. Burada 1 bal ən yüksək göstərici, 7-ci bal isə ən aşağı səviyyə hesab olunur.

Məruzədə Azərbaycandakı demokratik vəziyyət olduqca aşağı rəqəmlə-6,93 balla dəyərləndirilib. Bu 2009-cu ildən sonra ən aşağı göstərici sayılır. "Kavkazskiy uzel" saytının yaydığı məlumata əsasən, Azərbaycanla qonşu Gürcüstan və Ermənistandakı demokratiyanın dərəcələri aşağı salınıb.

"Freedom House"nin bu hesabatı Azərbaycanda ciddi etiraz doğurub. Ölkəmizdəki prezident seçkiləri günü məruzənin açıqlanmasının təsadüf olmadığı, bu qiymətləndirmənin Azərbaycana qarşı növbəti təzyiq dalğasının başlanğıcı olduğu qeyd edilir. Son zamanlar yumşalan Azərbaycan-Qərb münasibətlərinə bu hesabatın ciddi təsir edəcəyi bildirilir.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** bildirdi ki, bu təşkilat hər zaman qeyri-obyektiv mövqedən çıxış edib: ""Freedom House" əslində mahiyyət etibarilə dünyada insan haqları, demokratik proseslərin gedişi ilə bağlı məlumatları toplayıb, obyektiv şəkildə hesabat hazırlamalıdır. Amma görünən budur ki, uzun illərdən bəri həmin təşkilat Azərbaycan haqqında mənfi rəyini hər zaman ifadə etməkdədir. Ölkəmizə qarşı hücumlarına qətiyyən ara vermir. Prezident, parlament və bələdiyyə seçkilərində, eləcə də ayrı-ayrı situasiyalarda həqiqəti əks etdirməyən, daha çox böhtan xarakteri daşıyan rəylər və hesabatlarla Azərbaycana qarşı anti-Azərbaycan mövqeyini sərgiləməkdədir. Biz bunu uzun illərdən bəri görməkdəyik. Yaxınlarda sizin qəzetdə bir yazı ilə tanış oldum, orada Azərbaycanın əleyhinə işləyənlər barədə məlumat verilmişdi. Məlum oldu ki, onlardan biri də Qriqoryan adlı şəxsdir və bu adam "Freedom House"nin idarə heyətinin üzvüdür. Bir çox təşkilatları maliyyələşdirən həmin Qriqoryan "Freedom House"nin maliyyələşdirilməsində böyük rol oynayırsa, bu təşkilatın idarə heyətinin üzvüdürsə, digər erməni mənşəli şəxslər bu təşkilatda aparıcı mövqe tuturlarsa, ayrı cür rəy gözləməyimiz düzgün olmazdı. Görünən odur ki, Azərbaycanda bu və ya digər buna bənzər təşkilatların belə hesabatlarına ikrah hissi ilə yanaşırlar. Yaxınlarda ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyasının da məlum rəyi çox şeyi sübut etdi. Belə təşkilatlar erməni lobbisi ilə bərabər fəaliyyət göstərirlər. Bunu onların ermənilərlə maraqlarının üst-üstə düşməsi də sübut edir. Biz öz yolumuzla gedirik. Belə təşkilatların yanlış hesabatları Azərbaycanı tutduğu yoldan zərrə qədər geri çəkindirə bilməz. Onlar xalqımızın iradəsinə zərrə qədər təsir göstərə bilməzlər. Bu gün onları ən çox əsəbiləşdirən Azərbaycan xalqının iradəsinin ortada olmasıdır. Bu iradənin nəticəsində yüksək səs faizi ilə prezident seçilən cənab İlham Əliyevin qələbəsini həzm edə bilmirlər. Azərbaycanın uzunmüddətli nəzərdə tutduğu strategiyadan dərin narahatlıq hissi keçirirlər. Ölkə prezidentinin son dərəcə qətiyyətli mövqeyi onların yuxusunu ərşə çəkib. Bu, Azərbaycanın nə beynəlxalq səviyyədə nüfuzunun güclənməsinə mane olub, nə də daxili siyasətimizdə bu və ya digər sapmalara təsir göstərib. Əksinə, bu cür anti-Azərbaycan mövqeyi ölkəmizin mövqeyinin daha da güclənməsinə, qüdrətlənməsinə təkan verib. Bundan sonra da belə olacaq. Ona görə də bu cür rəyləri pisləyir, bunu birmənalı olaraq qeyri-obyektiv qiymətləndirirəm. Təəssüf edirəm ki, Azərbaycanın özünə strateji tərəfdaş sandığı Amerika kimi ölkədə bu və ya buna bənzər təşkilatlar fəaliyyət göstərir. Orada Azərbaycana qarşı ermənilərlə bir olan konqresmenlər, senatorlar var. Dünyada əsas söz sahibi olan Amerikanın siyasətində, təəssüflər olsun ki, bunlar yer alır. Vaxtilə dediklərimi bir daha təkrar edirəm ki, Amerikanın Azərbaycana qarşı siyasətində erməni xətti var. Görünən odur ki, dünyaya öz prinsiplərini diktə edən ABŞ ölkəmizə qarşı daxilində bu cür mövqe tutan təşkilatlara, şəxslərə qarşı iradə ortalığa qoymur. Bu hər kəsdə böyük təəssüf doğurur. Mənə elə gəlir ki, hazırkı Amerika prezidenti daha çox müstəqildir, erməni diasporu və beynəlxalq təşkilatların təsiri altında deyil. Ümid edirəm ki, yaxın zaman kəsiyində Donald Tramp imkan tapıb bu cür mövqe sərgiləyənlərə qarşı özünün iradəsini ortaya qoyacaq, Azərbaycana qarşı qərəzli mövqeyin Amerikadan bu və ya digər təşkilatlar tərəfindən davam etməsinə son verəcək. Bu, çox ədalətli olardı".



❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Kimi söyək şöhrət qazanaq?

**Samir SARI**

(Pərdəsiz məzhəkə-felyeton)

**Çayxana. Masa arxasında 5 yazar. Hamısının əlində telefon. Baxa-baxa söhbət edirlər.**

Bəyqulu Kiçikdərə: Qaraş, partlatmısan ey. Bilirsən, sənin statusuna nə qədər və necə şərhlər yazırlar? Laykı azdır, amma şərh çoxdur.

Qaraş Qaraqaşlı: Maraqlı deyil. Baxmıram. Nə yazırlar, yazsınlar.

Daşqın Od: Ə, yox, təkcə söymürlər ki. Müdafiə edənlər də var.

Mansur Dağ: On adamdan doqquzu söyür. Amma budur, biri də yazır ki, şair düz yazıb. İndi onu da söyürlər.

Xasay Dibirli: Tutuzdurmusan ey. Hardan ağlına gəldi Nəsimiyə ilişmək?

Qaraş Qaraqaşlı: Həə. Hələ növbədə Vaqiflə Vidadi də var. Onların da homodost olduqlarını yazacam.

Xasay Dibirli: Vallah, halaldır. Sənə qədər heç kəs "düz eləyib onun dərisini soyublar, kafir olub, soyublar" yazmamışdı.

Bəyqulu Kiçikdərə: Biri də yazıb ki, ona qalsa, sən özün də kafirsən, onda sənin də dərini soysunlar...

Qaraş Qaraqaşlı: Vecimə də deyil.

Daşqın Od: Ə, sən öl, mən də iki günə klassiklərdən birinə od qoyacam.

Mansur Dağ: Hə, xeyli klassik var. Axundov, Mirzə Cəlil, Haqverdiyev, Sabir, Hüseyn Cavid, Mikayıl Müşviq.

Qaraş Qaraqaşlı: Təcrübəmə güvənin. Hər klassiki vurmaq olmaz. Ən yaxşı və parlaqları vurmaq lazımdır. Bu saat duraq Süleyman Rüstəmdən bir şey yazaq, çox adam reaksiya verməyəcək.

Xasay Dibirli: Əsas odur ki, şərh çox olsun. Belə şeyə naxçıvanlılar yaxşıdır. Onlar təkcə şərh yazmırlar, məqalə də yazırlar. Hə, bir də qazaxlılar.

Bəyqulu Kiçikdərə: Qazaxdan kim qalıb? Hə, Mehdi Hüseyn durur. Yaza bilərsiniz ki, Mehdi Hüseyn sovet qrafomanı olub, vəzifəsi varmış deyə, əsərləri çap olunub.

Daşqın Od: Mirzə İbrahimov da vəzifəli olub. Amma ondan yazsaq, reaksiya olmayacaq. Kimi var ki? O taydan gəlmədir. İlyas Əfəndiyevin dramaturgiyasını zay elan eləsək, bəlkə füzulililər üsyana qalxar.

Xasay Dibirli: Hə, onlar çox söyüşcüldür. İntəhası, çoxu zəng edib söyür.

Qaraş Qaraqaşlı? Amma onları qızışdırmaq üçün ən yaxşısı "torpaqlarını qoydular, qaçdılar" yazmaqdır. Elə olanda ağdamlılar və cəbrayıllılar da onlara qoşulur.

Mansur Dağ: Yəni təkcə yazıçılarla məhdudlaşmaq olmaz. Məşhur və sevilən rejissorlardan, aktyorlardan da yazmaq olar. Məsələn, Adil İsgəndərovu istedadsız elan etsək, sən öl, gəncəlilər feysbukda bir tozanaq qopararlar ki...

Bəyqulu Kiçikdərə: Yox, mən bir müddət qazaxlılarla işləyəcəm. Ordan yazıçı və şairlər çox çıxıb: Osman Sarıvəlli, İsmayıl Şıxlı, Nüsrət Kəsəmənli...

Qaraş Qaraqaşlı: Bax, aktyor demişkən, Səməndər Rzayevi hamı tərifləyir, biriniz götürün bir şey yazın də onun haqqında. Əmin olun ki, təkcə ağsulular yox, o biri rayonlular da sizi söyəcək. Azı yüz əlli şərh gələr.

Xasay Dibirli: O qədər şərhə dözməyə peysər lazımdır e.

Daşqın Od: Qəti qorxusu yoxdur. Söyüşlərin peysərə kəsici-deşici təsiri olsaydı, Qaraşın süysünü indi deşik-deşik idi. Budey, soyadını artıq Qaraş Qaşqaldaq yazırlar...

Qaraş Qaraqaşlı: Vecimə də deyil.

Bəyqulu Kiçikdərə: İmzasını tanıtmaq istəyən yazar söyüşlərə dözməlidir. Peysərini düşünən adam şöhrətli yazar ola bilməz.

Mansur Dağ: Bəlkə mən Seyid Əzimi nəzmə çəkim, şamaxılılarla qırğına çıxım.

Daşqın Od: Alınmaz. Şamaxılılar Seyid Əzimdən hələ də yanıqlıdırlar. Müdafiə etməyəcəklər.

Xasay Dibirli: Qardaşlar, bakılılar yaddan çıxdı axı. Bunların da müqəddəs məşhurları var də. Onlardan yazaq. Məsələn, biriniz Əliqağa Vahidin qəzəllərini yerdə-yerə vura bilərsiniz.

Qaraş Qaraqaşlı: O mənlikdir. Biriniz də Şıxəli Qurbanovi götürün. Onu çox tərifləyirlər, ay Novruz bayramını xalqa qaytarıb-zad.

Bəyqulu Kiçikdərə: Mən istəyirəm Kərəmin acığına Qəşəmə döşəyim. Ata-bala üstümə gəlsinlər.

Mansur Dağ: Bəs 41-45 müharibəsinin qəhrəmanlarından yazmaq olar, görəsən? Məsələn, götürüb yazasan ki, o, ordeni döyüşdüyünə görə yox, geri qaçan özümüzünküləri vurduğuna görə alıb... Ay fısqırıq qopar ha...

Daşqın Od: O bir az təhlükəlidir. Elə qəhrəmanlar var ki, nəvələri yekə vəzifələrdə işləyirlər. Sən öl, adamın cibinə nəşə atdırıb tutdurar.

Qaraş Qaraqaşlı: Uşaqlar, təkcə vurmaq-yıxmaqla imza tanıtmaq olmaz. İndiyəcən hamının pis adam kimi tanıdığı şəxsləri müdafiə etmək də işə yarayar. Məsələn, 37-də üzə durub adam tutduranları müdafiə eləsəniz, camaat yenə sizi söyər.

Bəyqulu Kiçikdərə: Düzdür, bizə əsas nə lazımdır? Adımız çəkilsin, imzamız tanınsın, söyüş boş şeydir, uçub gedir.

Mansur Dağ: (Telefonuna baxır) Qaraş, Feysbukda səninlə bağlı bir pis xəbər var. Keçən dəfə söydüyün dahinin qohumları yığışıb redaksiyanıza gediblər, səni tapmayıblar, redaktorunun üzünə tüpürüblər.

Qaraş Qaraqaşlı: Vecimə də deyil...

**Ermənistanı bürüyən etiraz aksiyaları artan xətlə gedir. Keçmiş prezident Serj Sərkisyanın baş nazir seçilməsini qəbul etməyən minlərlə etirazçı paytaxt İrəvanda hökumət binaları qarşısında mövcud rejimi istefaya çağırır. Artıq asayiş keşikçiləri aksiya iştirakçılarına zor tətbiq etməyə başlayıblar, onlarla etirazçı həbs edilib.**



# Azərbaycan Ermənistandakı etirazlardan istifadə edə bilər, ancaq... - iki rəy

## Ekspertlər məsələyə əngəl olan bir amili xüsusi qeyd edirlər

Mitinqlərin təşkilatçısı olan parlamentdəki "Yelk" ("Çıxış") müxalifət fraksiyasının lideri Nikol Paşinyan sona qədər aksiyaları davam etdirəcəklərini bəyan edib. Ekspertlər proseslərin cinayətkar Sərkisyan rejimi üçün təhlükə vəziyyətə çata biləcəyini istisna eləmirlər.

Azərbaycanın mövcud durumda nələr etməli olduğu barədə fikirlər müxtəlifdir. Bir çoxları hesab edir ki, rəsmi Bakı bu vəziyyətdən istifadə edib, torpaqları azad etmək üçün hərəkətə keçməlidir. Rusiya faktorunu önə çəkərək, bunun çətin olduğu düşüncəsində olanlar da az deyil. Bütün hallarda Azərbaycan tərəfinin təcavüzkar ölkəyə müxtəlif yollarla təsirlər etməsinin vacibliyi vurğulanır. Ermənilərin zamanında Azərbaycan daxilindəki qarışıqlıqdan istifadə edərək, torpaqlarımızı işğal etdikləri önə çəkilir, ölkəmizin düşmənə cavab verməsi üçün zamanın yetişdiyi qeyd olunur.

**Lakin beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev** hesab edir ki, Azərbaycan hərəkətə keçərsə, bu, Sərkisyan rejiminin müsbətinə olar: "Azərbaycan torpaqlarını işğal olunduğu zaman tamam başqa dövr idi. Müstəqillik yeni əldə edilmişdi, dövlət institutları kövrək, ordu quruculuğu, silahlanma özünün ilkin mərhələsində idi. Bunların əvəzində Rusiyanın Ermənistana açıq və hərtərəfli yardımları sayəsində işğal baş vermişdi. Bu gün isə Azərbaycan, Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, istənilən vaxt uğurlu hərbi əməliyyatlara başlaya bilər. Doğrudur, şimal qonşumuzun və Qərbin buna müxtəlif - hətta ola bilər, daha kəskin reaksiyalarının şahidi olaq. Amma ədalətli tərəf olduğumuz üçün bu reaksiyalardan heç vaxt çəkinməməliyik. Bu gün Ermənistanda Qarabağ probleminin ədalətli həll olunmasını istəməyən uzun illərdir hakimiyyətdə kök salmış Serj Sərkisyan və Qarabağ klanıdır. Onlar hakimiyyətə Qarabağ müharibəsi dalğasında gəliblər və bu faktorla da hakimiyyətlərini qoruyurlar. Bu klanın hakimiyyətdən getməsi problemin sülh yolu ilə həll olunmasına müəyyən ümidlər verir, amma qalması isə ümidləri sıfır səviyyəsinə salır. Bu gün Ermənistanda Sərkisyan klanı əleyhinə gedən mitinqlər, etirazlar davamlı olacaqsa, tezliklə Sərkisyan klanının sonu çata bilər. Belə bir məqamda Azərbaycan tərəfin sərhəd boyu hər hansı hərbi əməliyyatlara başlaması, biz istəməsək belə, Serj Sərkisyanın maraqlarına xidmət edər. Bundan istifadə edərək insanların diqqətini konfliktə yönəltməklə mövqelərini möhkəmlədər, müxalifətini zəiflədər. Özünün isə müqavimət gücünü artırar. Ona görə də inanmıram ki, Ermənistan daxilində olan bugünkü qarışıqlıqdan istifadə edərək Azərbaycan cəbhə boyu hər hansı əməliyyata başlasın. Amma əksinə, əminəm ki, Serj Sərkisyanın özü vəziyyətinin ağırlaşacağı təqdirdə sərhəd boyu təxribatlara əl atıb sistemli atəşkəs pozuntusuna gedə bilər və bunların Azərbaycan tərəfindən törədildiyini bəyan edər. Biz bilirik ki, Ermənistanda insanların əksəriyyəti mövcud rejimdən narazıdır və eyni zamanda Dağlıq Qarabağ konfliktinin Ermənistana ziyan verdiyini, hətta gələcəkdə dövlət olaraq məhvə apardığını söyləyənlərin sayı da gündən-günə artmaqdadır. Əvvəllər onları sakitləşdirməyin yolu psevdopotriotizm idisə, indi o da işləmir. Ona görə də onun üçün yeganə yol qalır ki , o da təmas xəttində sabitliyin pozulması və bununla da özünə müxalif olanları vəziyyətin bu həddə çatmasında günahlandırmasıdır".

**Politoloq Əhəd Məmmədli** isə bunları dedi: "Fikrimcə, rəsmi Bakı bu hadisədən istifadə etməyəcək, etməməlidir də. Çünki Sərkisyanın əlində bəhanə olacaq ki, bax, görürsüz, müxalifət aranı qatdı, Azərbaycan da bundan istifadə edəcək. Onsuz da erməni müxalifətinin növbəti üsyanı yenə də yatırdılacaq. Bu, çox yaxın zamanda baş verəcək. Çünki Rusiya nə vaxta qədər güclüdürsə, o vaxta qədər Putinin vassalı Sərkisyan özünü qoruya biləcək. Azərbaycan bunlardan istifadə edib göstərməlidir ki, Ermənistanda demokratiya yoxdur və s. Yalnız məsələ ondadır ki, demokratiya məsələsində Azərbaycanda da vəziyyət ürəkaçan deyil. Amma yenə Azərbaycan Ermənistana qarşı ifşa kampaniyası başlatmalıdır. Hazırda müharibə real görünmür. Bir az da prosesləri izləyək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Ermənistanda bölgələr qarışdı

**Ermənistanın Şirak vilayətində etirazlar başlayıb. Axar.az xəbər verir ki, etirazçılar Şirak vilayət administrasiyasının qarşısına toplaşıb. Aksiyada iştirak edənlərin böyük qismini məktəblilər təşkil edib. Mətbuat aksiya zamanı 1 yeniyetmənin polis tərəfindən həbs edildiyini bildirib.**

Şirak vilayətinin mərkəzi sayılan Gümrüdə valideynlərə övladlarını aksiyalara buraxmamaları barədə xəbərdarlıq edilib. Bəzi məktəblərin qapıları qapadılıb və şagirdlərin məktəblərdən çıxışına qadağa qoyulub.

Artıq aksiyalara İrəvandakı bəzi məktəblər də qoşulub. Polis məktəblilərin bir qisminə qarşı zor tətbiq edib.

Ermənistanın Vanadzor şəhərində də aksiyalar start götürüb. Aksiyalar Ayka meydanında başlayıb. Buradakı aksiyaları deputat Zarui Postancyan başladıb.

Postancyan məktəblilərin aksiyalara qoşulmasında heç bir problemin olmadığını bildirib.

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

**ABŞ Dövlət Departamenti Ermənistanda son günlər baş verən hadisələrə az qala bəraət qazandıran çox yumşaq bir mövqe bildirib.**
**Dövlət Departamenti Ermənistandakı səfirliyin facebook səhifəsində son günlərdə ölkədə baş verən hadisələrlə bağlı bəyanat yayıb.**

# ABŞ Dövlət Departamentindən Sərkisyan rejiminə bəraət kimi bəyanat

## Vaşinqton Ermənistan olaylarına loyal münasibət bildirdi; Azərbaycanda keçirilən seçkilərə münasibətdə isə ATƏT DTİHB-nin rəyini müdafiə etdi




Bəyanatda deyilir: "Biz İrəvanda və Ermənistanın başqa şəhərlərində çoxlu sayda etiraz aksiyalarının keçirilməsinin şahidi oluruq. Ermənistanın minlərlə vətəndaşı öz ifadə və toplaşmaq azadlıqlarını gerçəkləşdirmək üçün küçələrə çıxıb. Biz İrəvanın mərkəzində və Ermənistanın digər şəhərlərində gedən etiraz aksiyalarını diqqətlə izləyirik. Xüsusilə etirazçıların əksəriyyətinin son bir neçə gündə polislərə qarşı məsuliyyətli və nəzakətli davranışı bizi olduqca ruhlandırır. Lakin polislərlə etiraz edənlər arasında baş verən toqquşmalardan da olduqca narahatıq. Biz bütün tərəfləri təmkin nümayiş etdirməyə və hər hansı zorakı hərəkətlərdən qaçmağa çağırırıq".

Qeyd edək ki, artıq 6 gündür Ermənistanda keçmiş prezident Serj Sarkisyanın baş nazir seçilməsinə yönəlik etirazlar bütün ölkəni bürüyüb. Aprelin 16-da İrəvanın mərkəzindəki Baqramyan prospektində polislə nümayişçilər arasında baş verən toqquşmada onlarla insan yaralanıb.

Göründüyü kimi, ABŞ Dövlət Departamentinin Ermənistanda baş verən hadisələrlə bağlı yaydığı bu bəyanatın mətni xeyli yumşaqdır. Ermənistanda olduqca gərgin hadisələr baş verməkdədir: müxalifətçilər küçələrdə döyülür, həbs edilir, sıxışdırılır. Onların etirazı isə sırf siyasi motivlərlə bağlıdır, bir adamın müxtəlif maxinasiyalardan istifadə edərək hakimiyyəti əlində saxlamasına, mafioz-klan hakimiyyəti qurmasına etiraz edirlər.

Ancaq başqa superdövlətlər kimi, ABŞ da gerçək durumu görməmezliyə vurur, diktatura rejimi quran Ermənistan rəhbərliyini sərt dillə tənqid etməkdən yayınır.

Qeyd edək ki, ABŞ Dövlət Departamenti bundan qat-qat zəif və yumşaq etiraz aksiyaları keçirilən ölkələrdə polisin davranışını "qeyri-adekvat zor tətbiq etmək" kimi dəyərləndirir, o ölkələrin rəhbərliyini sərt şəkildə tənqid edir. Ancaq son bəyanat da göstərir ki, Ermənistana yanaşma fərqlidir.

Ermənistan hakimiyyətinə loyal münasibət ortaya qoyan ABŞ Dövlət Departamentindən Azərbaycanda keçirilən seçkilərlə bağlı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) ilkin rəyini bölüşdüyü barədə açıqlama verilib. ABŞ Dövlət Departamentinin nümayəndəsi "Turan"ın Vaşinqtondakı müxbirinin sorğusuna cavab olaraq bildirib ki, ABŞ Azərbaycanda növbədənkənar prezident seçkilərinin ilkin qiymətləndirilməsi üzrə ATƏT missiyası ilə razıdır. "Turan" agentliyinin xəbərində deyilir: "Birləşmiş Ştatlar prezident Əliyev və Azərbaycan xalqı ilə bəzi mühüm ikitərəfli və regional məsələlər, o cümlədən insan hüquqlarına və azadlıqlara hörmətin təşviqində, iqtisadi islahatların və çiçəklənmənin dəstəklənməsində, terrorizmə qarşı mübarizədə əməkdaşlığa, həmçinin ATƏT-in Minsk Qrupu ilə fəal əməkdaşlıq vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına ümid edir. Biz Azərbaycanda seçkilərin müşahidəsi üzrə ATƏT-in ilkin qiymətləndirmə missiyası ilə razıyıq. İlkin hesabatda bəzi çatışmazlıqlar qeydə alınıb. Bura əsas azadlıqların məhdudlaşdırılması, həqiqi rəqabətin olmaması daxildir. Seçki administrasiyası resurslarla təmin edilsə də, DTİHB şəffaflığın olmadığını, çoxsaylı ciddi pozuntuların olduğunu, səsvermə zamanı qutulara topa ilə bülletenlərin atıldığını bildirib. Biz prezident Əliyevi və administrasiyasını bu problemlərin operativ həllinə çağırırıq".

**Deputat Elman Nəsirov** "Yeni Müsavat"a bildirib ki, Dövlət Departamenti ikili standartlara əsaslanan daha bir davranış nümayiş etdirib: "ABŞ Dövlət Departamentinin Azərbaycanda keçirilən prezident seçkisinin nəticələri ilə bağlı ATƏT DTHİB-nin qərəzli rəyini əsas götürməsi və qərəzli mövqedə əksini tapmış məsələlərlə bağlı Azərbaycan hakimiyyətinə müvafiq addımlar atılması üçün tövsiyəsi obyektivlikdən uzaqdır. Sual olunur, Dövlət Departamenti məsələlərə bu qədər həssasdırsa, onda niyə bu gün Ermənistanda siyasi hakimiyyəti zəbt etmiş Serj Sərkisyanın öz xalqına qarşı qaba gücdən istifadə etdiyini, etirazçılara divan tutulduğunu, deputatlara xəsarət yetirilməsini pisləmir?! Əksinə, bu hadisələrlə bağlı çox yumşaq bir mövqe bildirir. Bütün bu özbaşınalıqlara görə Ermənistan hakimiyyətini tənqid edən, bu özbaşınalığa son qoyulmasının tələb edildiyi mövqenin biz şahidi olmuruq. Bu cür ikili yanaşmanın qarşılığında Azərbaycan xalqının Dövlət Departamentinə çoxlu sualları yaranır".

**Gənc Demokratlar İnstitutunun direktoru, politoloq Yeganə Hacıyeva** da mövzunu "Yeni Müsavat"a şərh edib. O bildirib ki, Ermənistandakı proseslərə Dövlət Departamenti loyal yanaşıb: "ATƏT, Amnesty İnternational, Human Rights Watch, Freedom House, Avropa Şurası Baş Katibi və ya İnsan Haqları Komissarı və digər Qərb İnstitutları etirazçılara qarşı zorakılığı diqqətdən kənarda saxlayırlar. ABŞ Dövlət Departamenti isə yumşaq mövqe ilə kifayətlənir".

Y.Hacıyeva bildirib ki, istər Avropa, istərsə də ABŞ hüquq-müdafiə institutları erməni lobbi təşkilatlarının təsiri altındadır: "Həmçinin ictimai fikrin formalaşmasında xüsusilə ABŞ da etnik ermənilərin rəhbərlik etdiyi bir neçə böyük media təşkilatlar mövcuddur. Sırf Ermənistanla bağlı bu tip proseslər ərəfəsi onların erməni maraqları uğrunda həmişə davam edən fəaliyyətləri daha da aktiv fazaya keçir. Bu isə özlüyündə həmişə zorakı və anti-demokratik erməni rejiminin diqqətdən kənarda qalmasına səbəb olur. Ermənistandakı anti-demokratik rejimin necə diqqətdən kənarda qalmasına xidmət göstərirlər. O üzdən kiçik bəyanatları nəzərə almasaq, etirazçılara zorakılıq göstərən anti-demokratik Sərkisyan rejiminin bu dəfə də beynəlxalq ictimaiyyətin diqqətindən kənarda qalmasının şahidi oluruq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# İşğalçının Azərbaycana təzyiq göstərmək üçün uğursuz cəhdi

## **Hərbi ekspert:** "Ermənistanla Rusiya arasındakı anlaşma heç vəchlə Azərbaycana əlavə təhlükə yarada bilməz"

**Rusiya və Ermənistan hökumətləri Qafqaz kollektiv təhlükəsizlik regionunda Birləşmiş Regional Hava Hücumundan Müdafiə Sisteminin şəxsi heyəti və vəsaitləri barədə ortaq məxrəcə gəlib.**




İrəvanda qarşıdurmanın son həddə çatdığı bu günlərdə Ermənistanla Rusiya arasında iki il əvvəlki razılaşmaya uyğun olaraq addımların atılması maraqlı məsələdir. RİA Novosti xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Hava-Kosmik Qüvvələri komandanının birinci müavini, general-leytenant Pavel Kuraçenko açıqlama verib. "Ermənistan və Rusiyanın Qafqaz kollektiv təhlükəsizlik regionunda Birləşmiş Regional HHM sistemi üçün ayırdığı qoşunların siyahısı imzalanıb", - deyə Kuraçenko bildirib. Xatırladaq ki, Ermənistan Milli Məclisi 2016-cı ilin 30 iyununda regional hava hücumundan müdafiə sistemi yaratmaq haqqında sazişi ratifikasiya etmişdi. Məhz İrəvandakı bu gərgin günlərdə növbəti addımın atılması, şübhəsiz ki, Ermənistandakı Qərbyönümlü qüvvələrə və elə Qərb dairələrinə mesajdır. Rusiya işğalçı ölkəni əldən buraxmamaqda israrlıdır və ona Sərkisyan kimi əl buyruğu ilə hərəkət edən rəhbər çox lazımdır.

**Ehtiyatda olan zabit, hərbi ekspert Tərlan Eyvazov** "Yeni Müsavat"a dedi ki, Rusiya regionda ən yaxın hərbi müttəfiqi olan Ermənistanda öz hava hücumundan müdafiə sistemini möhkəmləndirmək məqsədini güdür: "Havadan müdafiə qüvvələri dünya ölkələri üçün olduqca mühüm sahədir. Hər hansı ölkənin səmasında uçan istənilən aparat həmin ölkənin bu qurumunun icazəsi və cihazlarının dəqiq izlənmə müşayiəti altında hərəkət edir. SSRİ dağıldıqdan sonra müstəqil dövlətlərin ilk qarşılıqlı razılaşmaları arasında bu sahə öncül yerdə olub. Çünki vahid məkan dağıldıqdan sonra sərnişin təyyarələrinin təhlükəsizliyi təmin edilməli idi. Bunu isə HMQ edir. Təbii ki, Rusiya ilə Ermənistan arasındakı razılaşma regionun hərbi potensialının qüvvələr nisbətinə müəyyən təsir göstərəcək. Amma bundan Ermənistan tərəfinin Qarabağda istifadə edə bilməsi real görünmür. İndiki məqamda Qarabağsız belə, Rusiyanın üzləşdiyi problemlər kifayət qədərdir. Həmçinin NATO üzvü Türkiyə ilə olan son yaxınlaşma Rusiya üçün çox vacibdir". T.Eyvazov hesab edir ki, Ermənistanla anlaşma heç vəchlə Azərbaycana əlavə təhlükə yarada bilməz: "Rusiya bununla Türkiyənin ən yaxın müttəfiqinə təhlükə yaratmaqla özünə də problem yaratmaq istəməz. Bu iki ölkə arasında sıradan olan işgüzar bir sazişin Ermənistan tərəfindən şişirdilərək dövriyyəyə buraxılması növbəti erməni təxribatı, Azərbaycan tərəfinə təzyiq göstərmək cəhdidir. Ölkəmizin isə bundan qorxusu yoxdur. İstənilən halda, hətta rus ekspertlərinin etiraf etdiyi kimi, Azərbaycan səması nəinki Ermənistan və Gürcüstan, hətta müəyyən hallarda Türkiyənin səmasından daha etibarlı qorunur. Çünki HVQ qüvvələrimizin arsenalında ən müasir, etibarlı müdafiə qurğuları mövcuddur".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

# Elektoral sevinclər



Zamin HACI
zaminhaci@gmail.com

"Evin yanmağının eybi yoxdur, çünki taxtabitilər də boğulurlar"
*(Koreya ata sözü)*

**Seçkilərin uca millətimizə xeyirli aksiya olması haqda bu yaxında yazmışdım. İndi daha bir müsbət ortaya çıxmışdır. Hətta bu müsbəti yaxşı mənada müsibət də adlandıra bilərik. Bu da bizim dilin, bizim elin bir qəribəliyidir ki, xoşumuza gələn şeylərə də pis adlar qoyarıq. Örnək üçün, görürsən kimsə qəşəng zəngulə vurur, deyirlər: "Köpəyoğlunun səsinə bax e!". Yaxud, biri əziyyət çəkib kitab yazır, millət onu belə mədh edir: "Alçağın əsəri yaman əsərdir!". Doğma balasına "şeytan", "it balası", "düdük" deyə əzizləyən millətdən nə gözləyəsən... Məncə, sosioloqlarımızın başı yaltaqlıqdan açılanda bu temada araşdırmalar aparmalıdırlar, çünki başqa dünya xalqlarında belənçik fenomenə rast gəlinməmişdir. Ehtimal edirəm bunu göz qaytarmaq üçün belə deyirlər.**

Qayıdaq temaya, yeni seçkinin növbəti müsbətinə. Hazırda hansı xəbər lentini açsan, orada möhtəşəm başlıq görmək mümkündür: "Nazirlər istefaya göndərildi". Əladır. Adam kayf tutur - müvəqqəti də olsa. Çünki bizim konstitusiyaya görə (hələlik onu ləğv eləməyiblər, arada açın oxuyun, ləzzət aparın - çox gülməli kitabdır) prezident seçkiləri keçiriləndən sonra təzə prezident Nazirlər Kabinetini tamamən ləğv edib yenisini qurmalıdır. Doğrudur, bizdə prezidentin nazirlərə yazığı gəlir və adətən onları elə ilk gün vəzifələrinin müvəqqəti icraçısı işinə qoyur, ancaq o fərman çıxana qədər bir neçə saatlıq, bəlkə də dəqiqə ərzində nazirlərimizin hamısı işsiz qalır. Bəh. Təsəvvür elə, orda elə nazir var Şah Abbası taxtda görüb, Kleopatranı Mark Antoninin qucağında. Millət artıq həmin nazirlikləri funksiyasına görə tanımır, "Filankəs müəllimin idarəsi" olaraq bilir. Nəzərə alsaq ki, bu müddətdə həmin nazirlər oğul-uşaqlarını, qohum-əqrəbalarını da idarədə müəyyən işlərə düzəldirlər, o zaman adamın səhərlər evdən çıxıb işə getdiyini söyləmək mənasız alınır. Çünki adam de fakto evdən çıxıb evə getmiş olur. İndi belə adamları hər 5-7 ildən bir neçəsə dəqiqəlik də yure işsiz qoymağın, istefaya göndərməyin sevinci bizə bəs deyilmi? (Sevindiyimdən çaşıb onların bir-ikisinin adını burda yazmışdım, qəfil yadıma düşdü ki, artıq onlar vəzifələrini icra etməyə təzədən başlayıblar - pozdum. Allah adamı saxlayanda saxlayır. Yoxsa, kim bilir, yazı qəzetdə çıxanda mən özüm müvəqqəti olaraq həyatda qalırdımmı). Şair sırf bu məqam üçün demişdir:

**"Küçələr, döngələr izindən qalır,**
**Yarpaq pıçıltısı sənin səsindi,**
**İşıqlar zil qara, gözündən qalır,**
**Bu şirin xatirə mənim bəsimdi".**

Həqiqətən bəzən adamın sevgilisinin gözləri fonar kimi yollara işıq salır. Küçələrin işıqlanması problemi də aradan qalxır. Nəsə, eşq-məhəbbət zamanı deyil, qayıdaq elektoral sevinclərimizin yanına. Yeddi ildə bir dəfə ələ düşən bayramdır, istifadə edək, hər saniyəsinin qədrini bilək.

Bu dəqiqə nazirlərin çoxu fikirləşir ki, birdən məni təzədən təsdiq eləməzlər. Axı yaxın tariximizdə belənçik hadisələr az-maz da olsa baş vermişdir. Seçki qurtarırdı, hamı istefaya gedirdi, bir növ, elnən gələn dərd-bəla kimi şey olurdu. Yəni bu müvəqqəti istefaya və vəzifənin icrasına, rusca desək, "io" ("ispolnyayuşiy obyazannosti" sözlərinin baş hərflərindən qayırılan rus qısaltmasıdır - bizim kabinetdə rus dili həmişə əsas dil olmuşdur) olmağa birtəhər dözülür. Təki adam "ia" olmasın. Yəni işsiz qalıb pis səs çıxartmasın. Ən pisi budur. Dünənə qədər səninlə birgə nazir işləyənlər təsdiqlənir, səni isə vurub atırlar. Dükan-bazar, toyuq fabrikləri, pomidorxanalar, kababxanalar, duşxanalar, quşxanalar və bizim ağlımıza, təsəvvürümüzə gələcək və gəlməyəcək başqa "xanalar" bir günün içində, bir "Günün ekranı" proqramının rəsmi xəbərlər hissəsində yoxa çıxır. Yəqin bu, çox ağır olmalıdır. Bəzən ürək buna dözmür.

# Hərb, yoxsa sülh dilemması gündəmə qayıdır

**Azərbaycan, Rusiya və Ermənistan seçki zolağından çıxdı. Bu, o deməkdir ki, Qarabağ məsələsini, sülh danışıqlarını irəli aparmaq üçün seçki bəhanəsi daha mövcud ola bilməyəcək. Diplomatik danışıqları canlandırmağı indi həm də hərbi əməliyyatlar üçün ən əlverişli sayılan yaz-yay mövsümünün başlanması diktə edir. Necə deyərlər, hərb, yoxsa sülh dilemması artıq indi yeni bir bicimdə gündəmə qayıtmaqdadır.**



## Bakı müharibə hazırlığını gücləndirir - yeni silahlar gəlir

### "Azərbaycana "İsgəndər"dən üstün, yüksək dəqiqlikli "Polonez" kompleksləri gətirilir - düşmən təlaşda; **rusiyalı politoloq:** "Ermənistan özünü o dərəcədə ikiüzlü aparır ki, Pitinin səbri tükənə bilər..."

Bir şey dəqiqdir və bunu Moskvada da, İrəvanda da bilməmiş deyillər ki, Azərbaycan hazırkı status-kvoya və ya qanuni ərazilərinin işğal altında qalmasına sonsuzadək dözmək niyyətində deyil. Böyük sülhün uzanması isə Bakını öz hərbi qüdrətini və döyüş hazırlığını durmadan artırmaq zorunda qoyur. Əksər hərbi və siyasi analitiklər bu xüsusda Azərbaycanın işğalçı Ermənistan üzərində öz əzici üstünlüyünü saxladığı qənaətindədirlər.

*****

"Azərbaycanla Ermənistan arasında konflikt qızışacağı təqdirdə Azərbaycan tərəfdən 90-cı illər istehsalı olan müasir silahlar ermənilərdəki 60-70-ci illərin köhnə silahlarına qarşı istifadə olunacaq. Yəni bütün bunlar əsla müqayisə olunmaz və Azərbaycan ordusunun texniki üstünlüyü Ermənistanın hərbi-texniki potensialını 6 dəfəyədək üstələyir". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri rusdilli Minval.az saytına **rusiyalı tanınmış analitik və tarixçi - alim Oleq Kuznetsov** deyib.

Ekspert işğalçı ölkənin növbəti, 100 milyonluq kredit hesabına Rusiyadan silah almaq istəyinə də toxunub: "Hazırda Rusiyanın büdcəsində Ermənistanın silahlanması üçün pul yoxdur və çətin ki, belə bir şey planlaşdırılsın. Ələlxüsus o vaxtda ki, biz yaxşı bilirik ki, Ermənistan Rusiyanın təsirindən çıxıb Qərbə doğru gedir. Odur ki, Rusiyada heç kim potensial qeyri-müttəfiqə sponsorluq edəsi və ya onun silahlanmasını maliyyələşdirəsi olmayacaq".

Politoloq Qarabağda müharibəni qaçılmaz hesab edir. "Hər halda, bu gün bütün ön Asiya o dərəcədə qaynar vəziyyətdədir ki, daha bir münaqişə ocağı mümkündür. Əgər şərti desək, Qərblə Şərq arasında konflikt çox dərinə getsə, o zaman qarşıdurma istisna deyil ki, özünü təkcə Suriyada deyil, Ukraynada, Qarabağda da göstərsin", - deyə politoloq qeyd edib.

Ekspert vurğulayıb ki, Rusiyaya sərf edəndə o, Azərbaycanla Ermənistan arasında müharibəyə göz yumacaq: "Nədən ki, Ermənistanın Rusiyaya münasibətdə mövqeyi o dərəcədə ikiüzlüdür ki, erməniləri Putinin şəxsiyyəti belə qıcıqlandırır və mən bunu da istisna eləmirəm ki, günün birində Rusiya liderinin səbri, sadəcə, tükənə bilər. Bir nüansı da xüsusi qeyd edim ki, Qarabağ danışıqları başlanan zamanlardan Rusiya siyasətində problemin həlli - sərf prezidentin prioritet məsələsidir. XİN, Müdafiə Nazirliyi, Prezident Aparatı burada yalnız köməkçilər rolundadır. Yəni konfliktin yekun həlli yalnız birinci şəxsdən, Putindən asılıdır. Putin isə belə bir mövqedədir ki, "alma özü yetişməli və düşməlidir". Ona görə də Azərbaycanı müharibəyə, əlbəttə ki, heç kim həvəsləndirməyəcək, ancaq Bakının tamamilə qanuni hərəkətlərinə də - nə vaxt ki, bu hərəkətlər Rusiyanın maraqları ilə üst-üstə düşəcək, - fikrimcə, Rusiyada heç kim mane olmayacaq".



*****

Bu arada Azərbaycanın yeni partiya müasir silahlar almağa hazırlaşdığı məlum olub. Belə ki, Belarus bu il ərzində "Polonez" reaktiv yaylım atəşi sistemlərinin ixracına dair ilk müqavilənin yerinə yetirilməsinə başlayacaq. Müqavilə çərçivəsində 10 "Polonez" kompleksinin ixracı nəzərdə tutulur və ilk alıcı da məhz Azərbaycandır.

Bu sensasion məlumatı nüfuzlu "Kommersant" nəşri Belarus Müdafiə Nazirliyinə yaxın qaynağa istinadən yayıb (Virtualaz.org). Mənbə deyib ki, 10 kompleksə raketlər, nəqliyyat-doldurucu maşınlar, idarəetmə məntəqəsi, radiolokasiya stansiyası və s. daxildir. O da bildirilir ki, müqaviləyə dair hüquqi sənədlər artıq final mərhələsindədir, müştəri isə "öz maliyyə məsələlərini həll edib başa çatdırmaq üzrədir".

Mənbə əlavə edib ki, söhbət Belarus tərəfdən ayrılan kreditdən getmir. Yəni sifarişçi raketləri öz puluna alır. Qəzet xatırladır ki, Azərbaycan müdafiə naziri Zakir Həsənov ötən il Belarusda səfərdə olub və "Polonez" komplekslərinə baxış keçirib. Müdafiə naziri yaxın vaxtlarda yenidən Minskə səfər etməyə hazırlaşır.

"Polonez" kompleksləri 2012-ci ildə Moskvanın Minskə "İsgəndər" operativ-taktiki raketlərini verməkdən imtina etməsindən sonra işlənib hazırlanıb. Bu silah prezident Lukaşenkoya "bəzi qüvvələrin fəallaşmasına cavab olaraq" lazım idi. Lakin Rusiya raketləri verməkdən imtina edib, əvəzində təklif edib ki, Rusiya ordusunun "İsgəndər"lərlə silahlanmış birləşməsi Belarus ərazisində dislokasiya olunsun. Bu variant isə Lukaşenkonu qane etməyib və Belarus hərbi sənayesi Çinlə birlikdə taktiki-texniki göstəriciləri "İsgəndər" raketlərinə uyğun olan raket kompleksinin işlənib hazırlanmasına başlayıb.

"Polonez" kompleksləri ilk dəfə 2015-ci ildə Minskdə hərbi parad zamanı nümayiş etdirilib. Daha sonra raketlər poliqonda sınaqdan keçirilib və 450 kiloqramlıq döyüş başlığına malik raketlər 300 kilometr məsafədə hədəfi 10-20 metr dəqiqliklə vurub. Çinin A-200 raketləri ilə təchiz edilən, Belarus hərbi sənayesinin idarəetmə sistemi ilə hədəfə yönləndirilən "Polonez" kompleksləri yüksək dəqiqlikli silah sistemi kimi özünü doğruldub.

Əlavə edək ki, Azərbaycan Silahlı Qüvvələrinin belə raketlərə tələbatı 2016-cı ilin aprel döyüşlərindən sonra Rusiyanın Ermənistana 4 "İsgəndər" operativ-taktiki raket kompleksi verməsindən sonra yaranıb. Bu raketləri alandan sonra Ermənistan rəhbərliyi hər addımda lovğalanaraq Azərbaycanla hərbi tarazlığa nail olduqlarını iddia edirdi. İndi isə Azərbaycan Belarusdan daşıdığı raketlərin sayına və deməli, atəş gücünə görə "İsgəndər" komplekslərindən daha üstün olan 10 "Polonez" kompleksi alır. "Polonez" kompleksi hər biri 450 kiloqram döyüş başlıqlı 8 raket daşıyır. Müqayisə üçün "İsgəndər" kompleksi hər biri 500 kiloqram döyüş başlıqlı cəmi iki raketə malikdir. Yəni indiki halda Ermənistanın malik olduğu 4 "İsgəndər" kompleksi eyni vaxtda maksimum 8 raket buraxa bilərsə, Azərbaycanın əldə edəcəyi 10 "Polonez" kompleksi 80 belə raketlə eyni vaxtda zərbə endirməyə imkan verəcək.

Demək, düşmən tərəfdə təlaşın daha da artacağı şəkk-şübhəsizdir.

❑ **"Yeni Müsavat"ın analitik xidməti**



# Azərbaycan yeni raket kompleksləri alacaq

## Ekspert: "Belarusdan alınan silahların heç birində hər hansı nasazlıq tapılmayıb"

**Bu il ərzində Belarus "Polonez" reaktiv yaylım atəşi sistemlərinin ixracına dair ilk müqavilənin yerinə yetirilməsinə başlayacaq. Müqavilə çərçivəsində 10 "Polonez" kompleksinin ixracı nəzərdə tutulur, alıcı isə Azərbaycandır. Bu barədə "Kommersant" qəzeti məlumat yayıb.**

"Polonez" kompleksləri ilk dəfə 2015-ci ildə Minskdə hərbi parad zamanı nümayiş etdirilib. Daha sonra raketlər poliqonda sınaqdan keçirilib və 450 kiloqramlıq döyüş başlığına malik raketlər 300 kilometr məsafədə hədəfi 10-20 metr dəqiqliklə vurub. Çinin A-200 raketləri ilə təchiz edilən, Belarus hərbi sənayesinin idarəetmə sistemi ilə hədəfə yönləndirilən "Polonez" kompleksləri yüksək dəqiqlikli silah sistemi kimi özünü doğruldub. Mənbə Belarusun Azərbaycana "Polonez" komplekslərini satmasının Ermənistanda narazılıq doğuracağını da deyib.

Onu da qeyd edək ki, Global Firepower" təşkilatının yaydığı məlumata görə, Azərbaycan Silahlı Qüvvələri "Dünyanın ən güclü ordusu" reytinqində 53-ci yerdə qərarlaşıb. Bu isə onu göstərir ki, ötən illə müqayisədə Azərbaycan 5 pillə irəliləyib. Hesabatda qeyd olunur ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin sərəncamında 18 qırıcı, 29 hücum, 83 nəqliyyat, 19 təlim təyyarəsi və 93 helikopter (onlardan 17-si hücum helikopteridir), Silahlı Qüvvələrin silahlanmasında isə 520 tank, 1590 zirehli texnika, 359 artilleriya qurğusu, 191 Reaktiv Yaylım Atəşi Sistemi var. Bildirilir ki, Azərbaycan ordusunun sayı 374500 nəfərdir, səfərbərlik zamanı isə 3 750 000 nəfər hərbi xidmətə çağırıla bilər. Qonşu Gürcüstan reytinqdə 82-ci, Ermənistan isə 84-cü pillədə qərarlaşıb.

"Yeni Müsavat"a danışan hərbi ekspert **Tərlan Eyvazov** bildirib ki, bu silahların özünə məxsus spesifikası var: "Son illərdə Belarusdan alınan silahların heç birində hər hansı qeyri-dəqiqlik, nasazlıq tapılmayıb. Bu kimi hallar Rusiyadan alınan silahlarda olub və sonradan aradan qaldırılıb. Bu silahın alınması Azərbaycan ordusunun tamamilə statusuna uyğun bir məsələsidir. Torpağımız işğal altındadır və bildiyiniz kimi, digər ölkələr bizə silah satmırlar. Ona görə də məcbur olub kim silah satırsa, ondan da alırıq. Özümüz istehsal edə bilmədiyimiz silahların müəyyən qismini xaricdən alırıq. Bu isə tamamilə beynəlxalq qanunlara uyğun haldır. Eyni zamanda Azərbaycan ordusunun, əhalisinin sayına da müvafiqdir. Ona görə də silahların alınması bizim üçün hansısa siyasi problem yarada bilməz. Bu, sırf olaraq müdafiə silahıdır. Rusiya bazasının Ermənistanda yerləşməsi və müttəfiq olmaları nəticəsində bu ölkə Ermənistana çox ucuz qiymətə silah satır. Özü də bunu uzun müddətlik kredit hesabına edir. Yəni dövlət özü kredit ayırır, Ermənistan hökuməti də bunu guya nə vaxtsa ödəməlidir. Təbii ki, heç zaman ödəməyəcək. Bütün bunların qarşılığında təcavüzə məruz qalmış Azərbaycan bu kimi silahları almalıdır".

Ekspert silahlanmanın strateji bir xətt olduğunu dedi: "Silahlanma həm müharibəni tezləşdirə, həm də tezləşdirməyə bilər. Digər tərəfdən isə, silahlanma özü də bir strateji xətdir. Bu bir mal mübadiləsidir. Yəni Azərbaycanın silah idxal etdiyi ölkələrlə münasibətinin düzəlməsidir. Deyərdim ki, Belarusun özü Rusiyadan sonra Ermənistanla ikinci strateji müttəfiq idi. Qarabağ savaşında şəxsən Ermənistan tərəfindən döyüşən Belarus vətəndaşları da görmüşəm. Hal-hazırda isə Azərbaycan rəhbərliyinin bu sahədə apardığı uğurlu siyasətin nəticəsində də iki ölkə arasında xeyli yaxınlaşma baş verib. Bu, iki ölkə arasında olan və Belarus üçün çox vacib əhəmiyyətə malik kommersiya müqavilələri hesabına da baş verib. Düşmən tərəfi bizim qədər silahlana bilməsə də, məcbur olub bizimlə ayaqlaşmaq istəyir. Bu zaman isə Ermənistanda bu gün baş verən hadisələr müşahidə olunur. Çünki iqtisadiyyatları buna tab gətirə bilmir, əhalisində narazılıqlar yaranır. Bizim büdcəmiz böyük olduğu üçün hərbiyə çox pul ayırırıq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Kreml Ermənistanda baş verənləri müşahidə edir" - Putinin sözçüsü

**Kreml Ermənistanda baş verənləri müşahidə edir və ümidvardır ki, hər şey qanun çərçivəsində olacaq.**



Virtualaz.org RİA "Novosti"yə istinadən xəbər verir ki, bunu ötən gün jurnalistlərə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"Biz Ermənistanda baş verənləri müşahidə edirik və ümid edirik ki, hər şey qanun çərçivəsində olacaq", - deyə Peskov jurnalistin müvafiq sualını cavablandırıb.

O xatırladıb ki, prezident Vladimir Putin dünən Serj Sərkisyana təbrik teleqramı yollayıb: "Axşam, kifayət qədər gec bir vaxtda o zəng edib və Nazirlər Kabinetinin başçısı seçilməsi münasibətilə təbrik edib. Sözsüz ki, fikir mübadiləsi aparılıb".

# Nə Rusiyaya, nə də Əsədə qarşı - bu dünyanın oyunları...



**Hüseynbala SƏLİMOV**

**Suriyanı atış meydançasına çeviriblər, elə bil Suriya böyük bir tirdir, hamı gəlib tüfəngini, gülləsini burada yoxlayır...**

Deyəsən, ABŞ-ın da raket atəşfəşanlığı, sadəcə, bir mesaj imiş, ən azı ona görə ki, bunun davamı ilə bağlı yəqinlik yoxdur, üstəlik, amerikalı diplomatlar and-aman edir ki, bunların nə Rusiya ilə, nə də Əsədlə işləri yoxdur, problemləri yalnız İŞİD-dir.

Bəli, məlum olur ki, Suriya hərbi teatrında İŞİD-dən başqa hamının "dayısı" var, daha doğrusu, dost-doğma "dayıları" da artıq İŞİD-dən üz döndəribdir. Düzü, bu, bizi elə də narahat etmir, sadəcə, bu oyun bizlərə ədəbi personajlardan birini - Frankenşteyni xatırladır...

Elə müttəfiqlər də Suriyaya hücumlarını əsaslandrmaq üçün özlərinə əziyyət vermədilər. Tereza xanım, demək olar ki, "Belə lazım idi" dedi, Makron müəllim isə buyurdu ki, Türkiyə ilə Rusiyanı biri-birindən ayıra bildik. Sonuncuya xarici işlər naziri M.Çavuşoğlu çox orijinal cavab verdi: "Rusiya ilə əlaqələrimiz Fransanın ayıra biləcəyi qədər zəif deyil".

Bizsə Makrondan da, bura ildırım sürətilə təşrif buyurmuş NATO başçısından da başqa şey soruşardıq: Türkiyə sizin üçün bu qədər önəmli ölkədirsə, niyə onunla belə qeyri-səmimi, soyuq davranırsız?..

Təbii, bu sual onların cavablandırmalı olduqları suallar sırasından deyildir, amma necə unudaq ki, NATO ölkələri Türkiyəyə hava hücumundan müdafiə sistemlərini satmadı, təlimlərində ehtimal edilən rəqibi Atatürkün, Ərdoğanın adı ilə işarələdilər...

Qərəz, bütün bunlar artıq tarixçilərin və siyasi təhlilçilərin predmetidir, siyasət adamları daim irəli baxmağa çağırırlar. Olsun. Etirazımız yoxdur. Amma geridə də elə suallar qalıb ki, onları cavablandırmadan irəliləmək qəti mümkün deyil.

Suallardan biri budur ki, niyə Rusiya ABŞ-a cavab vermədi? Cavabı olduqca sadədir. Rusiya cavab verməyə heç hazırlaşmırdı da, çünki V.Putinin ambisiyaları böyük olsa da, SSRİ-ni bərpa etmək arzusu ilə qovrulsa da, SSRİ-ni süquta aparan səhvləri təkrarlamaq istəmir. Həmin səhvlərdən birincisi isə Rusiyanın yenidən Əfqanıstan kimi bir müharibəyə cəlb olunmasıdır. Bu səbəbdən Putin ayağının birini daim Suriyadan kənarda saxlayır ki, bataqlığa tamam batmasın.

İkincisi, Putin elə də axmaq deyil ki, ABŞ, Britaniya və Fransa ilə, ya da bütövlükdə NATO ilə qarşı-qarşıya gəlsin.

Üçüncüsü, Türkiyə ilə məlum təyyarə insidenti baş verəndə Kremlin davranışını çox izlədik. V.Putin çox asıb-kəsdi, amma son mövqeyi belə oldu ki, Türkiyəyə müharibə elan etməyəcəyik. Aydın məsələdir ki, Türkiyə ilə belə müharibədən çəkinən bir ölkə heç bir halda ABŞ-la və onun Britaniya və Fransa kimi müttəfiqləri ilə savaşa girməz və təkbaşına NATO ilə qarşı-qarşıya durmaz.

Dördüncüsü, tarix boyu Rusiyanı əsasən üç şey hifz edib: böyük coğrafiya, sərt iqlim və böyük insan resursları. Rusiyanın rəqibləri üzərində qələbələri yalnız bunun sayəsində mümkün olub, özü də bu qələbələrin hamısı "pir qələbəsi" olub, çox böyük itkilər hesabına başa gəlib. Napoleon Rusiyaya yürüşdən qayıdandan sonra yazmışdı ki, mən ora ordu ilə vuruşmağa getmişdim, şaxta ilə yox...

Qərəz, əvvəlcədən anlaşılan bu idi ki, Rusiyanın ABŞ-a cavabını gözləməyə dəyməz, hərçənd, Kremlin assimmetrik və yaxud da hibrid cavabının olacağı haqqında söz-söhbət bitib-tükənmir. Amma indilik bir şey var: Rusiya BMT-nin qapısının ağzını kəsdirib...

Bəs bu oyunun mənası nə idi? Heç nə. Raketlər ona işarə idi ki, canavarlar ov sahələrini murdarlayaraq işarələdikləri kimi, ABŞ da Yaxın Şərqi çoxdan işarələyib və demək istəyir ki, mənsiz bu problem həll oluna bilməz və mənim buradan getmək fikrim yoxdur.

Burada başqa məsələ də var. Tramp çox ziddiyyətli, qarmaqarışıq siyasət aparır. Bir səbəbi budur ki, prezidentlə dövlət maşını arasında böyük ziddiyyət var. İkincisi, Tramp hələ də Putinlə görüşməkdə bərk israrlıdır və düşünür ki, görüş ərəfəsində Putini nə qədər sıxsa, bunun görüşün effektinə təsiri bir o qədər çox olar.

Qərəz, böyük oyun gedir və bu oyunda hamının ən axırda yada saldığı suriyalılar və bir də Suriya dövlətidir.

Aydındır ki, oyunun sonu bir "torq"- "alver" olacaq. Amma onun predmeti nə olacaq, tərəziyə nə qoyulacaq - bax, bunu heç kim bilmir...

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

# "Azərbaycan cilalanmaya ehtiyacı olan almazdır"

## Professor Məsud Aşina: "Biz hələ xalq olaraq tarixdə hər şeyi etməmişik"

**Danimarkada yaşayan azərbaycanlı tibb professoru Məsud Aşina ilə müsahibənin ikinci, sonuncu hissəsini təqdim edirik.**

*(Əvvəli ötən sayımızda)*

***- Danimarkada keyfiyyət və kəmiyyət baxımından Azərbaycan faktorunun mövcudluğu haqda nə deyə bilərsiniz? Bizim ölkəmizdə tez-tez haqqında danışılan lobbizm nədir və o, Avropada azərbaycanlı diasporun azsaylı olması şəraitində yarana bilərmi?***

- Bizim diasporumuz həqiqətən də azsaylıdır. Mən Azərbaycan Respublikasından gələnləri nəzərdə tuturam, İran əsilli etnik azərbaycanlıları yox - hansılar ki, Danimarkada yetərincə çoxdur. Danimarkada birinci nəsil azərbaycanlıların inteqrasiyasını müsbət işarə ilə qiymətləndirmək olar. Amma bizimkilərin hansısa dərin inreqrasiyasından, tutaq ki, tibbi məkana, hüquq və ya siyasi sistemə inteqrasiyasından danışmağa dəymir. Burada nüfuzlu azərbaycanlılar, demək olar, yoxdur. Ona görə də stavkalar növbəti nəsillərə, uşaqlarımıza edilməlidir, hansıları ki, yönəltməyə, inkişaf etdirməyə, onlarda maksimal professionalizm tərbiyə eləməyə borcluyuq. Ki, öz sahələrində onlar zirvələrə nail olsunlar. Yalnız bundan sonra hansısa effektli diaspordan danışmaq mümkündür. Lobbiyə gəlincə, o yalnız o vaxt yaranır ki, diasporun çoxsaylı üzvləri ölkənin bütün ictimai-siyasi sferalarında, mədəni və iqtisadi həyatında təmsil olunsunlar. Necə ki, ABŞ-ın yəhudi və ya yunan diasporu təşkilatlanıb.

***- Bizim bir ümumi tanışımız necəsə mənə demişdi ki, "Məsud Aşinanın tək özü elə Danimarkada böyük bir lobbi deməkdir". Bu iddia ilə razısınızmı?***

- Bizim ümumi tanışımıza şişirtmək vərdişi xasdır. Yəqin ona görə belə deyib ki, mən Azərbaycanı bütün dünyada təmsil eləməkdən böyük zövq alıram. Bütün tibbi karyerama görə Danimarkaya borcluyam. Ancaq mənim üçün bioqrafiyamda "İlk tibbi təhsilini Azərbaycanda alıb" frazası çox mühüm əhəmiyyət daşıyır. Mənə beynəlxalq konfranslarda yaxşı mənada təəccüblənən həmkarlarımı görmək xoşdur - hansılar ki, suallar verir, Azərbaycanla maraqlanırlar. Onlara özümüz haqda, bizim istedadlı, gənc həkimlərimiz haqda, ölkənin intellektual potensialı haqda danışmağın özü bir zövqdür. Azərbaycan gəncliyi bizim sərvətimizdir və bu sərvətlə düzgün, bacarıqlı və ehtiyatla istifadə eləmək gərəkdir.

***- Həmkarlarınız ən çox sizə hansı sualları verirlər? Siz bütün dünyanı gəzir, çoxlu sayda adamlarla, necə deyərlər, tibb elminin nəhəngləri ilə görüşürsünüz. Onları ilk növbədə nə düşündürür? Azərbaycanın problemləri haqda bilmək istəyirlərmi, yoxsa onları yalnız pozitiv gündəm maraqlandırır?***

- Xarici həmkarlarla Azərbaycan siyasi həyatına baş vurmaq kimi hal yadıma gəlmir. Bu, heç kimi maraqlandırmır. Bu da anlaşılandır. Çünki söhbət elmi elitadan gedir. Bu elitanı da tamamən ayrı aspektlər ilgiləndirir, nəinki siyasət. Onlar böyük həvəslə ölkənin tarixinə diqqət yetirir, Azərbaycanda tibbi məktəb haqda, bizim elmi ənənələrimiz barədə soruşurlar. Hər fürsətdə mən onları bizim gənc mütəxəssislərlə tanış edirəm, onlar arasında təmas olmasına çalışıram - hansı təmaslar ki, elmi dairələrdə vacibdir. Ona görə bakılıların tıxaclarda ilişib qalan narazılığını anlasam da, mən cəsarət edib hakimiyyətin ölkəni hər cür beynəlxalq tədbirlər üçün meydançaya çevirmək siyasətini dəstəkləyirəm. Ancaq düşünürəm ki, zamanında kommersiya layihələri öz yerini beynəlxalq səviyyəli elmi layihələrə verməlidir. Bu - ümumdünya elmi cəmiyyəti tribunasından özünü tanıtmaq imkanıdır.



**"Mən hakimiyyətin ölkəni hər cür beynəlxalq tədbirlər üçün meydançaya çevirmək siyasətini dəstəkləyirəm"**

***- Keçən il dünya nevrologiya elitası sizi Beynəlxalq Baş Ağrıları Cəmiyyətinin (International Headache Society) prezidenti seçdi. 2019-cu ildən bu vəzifəyə başlayacaqsız. Bu münasibətlə sizi təbrik edirəm. Siz həm də Baş Ağrıları Avropa Federasiyasının katibi və əlbəttə ki, Danimarka Baş Ağrıları Cəmiyyətinin prezidentisiniz. Yəni dünya tibb elmində çox mühüm personasınız və mən bizim çoxillik dostluğumuzla hədsiz qürur duyuram. Ancaq söhbətimizə bir az intriqa qatıb belə bir şey haqda da soruşmaq istəyirəm. Düşünürəm ki, bu müsahibəni minlərlə adam oxuyacaq və kimdəsə mütləq belə bir sual doğacaq: niyə sizin kimi şəxsiyyət Azərbaycanda deyil və öz ölkəsinə fayda gətirmir? Bu kimi suallara adətən necə cavab verirsiniz?***

- Əsas odur ki, dilxor olmayasan və istəməyəsən ki, fiziki olaraq hər şey "yanında" olsun. Azərbaycanda baş ağrıları üzrə çoxlu gözəl həkimlər, mütəxəssislər var - hansılara ki, ürəklə müraciət eləmək olar. Bunu bütün məsuliyyətimlə deyirəm. Mən Bakıda çoxlu sayda gözəl, bacarıqlı və istedadlı həkimlər tanıyıram və bu gənc mütəxəssislər bizim fəxrimizdir.

Zənnimcə, Azərbaycanda yeganə problem bu problemlə məşğul olan mərkəzlərin olmamasıdır. Belə mərkəzlər bizim əsas şəhərlərimizdə, məsələn, Bakıda, Qubada, Gəncədə, Lənkəranda fəaliyyət göstərməlidir. Axı, bizim mütəxəssisləri hazırlamaq və vətəndaşlara xidmət sistemi işləyib hazırlamaq tamamilə mümkündür. Bu sistem dövlət sığortası əsasında işləyəcək, yoxsa özəl olacaq, bilmirəm. Əsas odur ki, əhali düzgün müalicə alsın.

Son vaxtlar ölkədə ən son texniki avadanlıqlarla təchiz edilmiş yeni xəstəxanaların sayı hissediləcək dərəcədə artıb. Bu, yaxşı tendensiyadır. Ancaq problem ondadır ki, bütün bu klinikalar, demək olar, özəldir. Orada kim və necə müalicə alacaq - özəl əsasda, yoxsa sığorta ilə? Tutaq ki, xəstənin stend qoyulmasına kəskin ehtiyacı var. Bu əməliyyata o, sığorta olmadan necə nail ola bilər? Tibbi sığorta mütləq şərtdir və bu problemi həll eləmək lazımdır. Eyni zamanda dövlət, universitet klinikalarının nüfuzunu qaldırmaq lazımdır. Onlar özəl klinikalarla rəqabət aparmalı və daima yüksək səviyyədə olmalıdır.

***- Sizdən öz sahəniz olan miqren barədə soruşmaq istəyirəm. Azərbaycanda adətən istənilən davamlı baş ağrısını miqren sayırlar. Dünya və Azərbaycan üzrə real statistika necədir? Məlumdur ki, siz elmin bu sahəsinin inkişafı üçün beynəlxalq miqyasda çox şey etmisiniz. Bu bəlanın mahiyyəti və müasir nevrologiyanın imkanları haqda danışardınız.***

- Miqrendən başlayım. Vaxt var idi miqreni qadınla assosiasiya edirdilər, pasiyentləri isterik adlandırır, onlara preparat qəbul eləməyi və uzanmağı təklif edirdilər. Guya ki, keçəcək. Buna ciddi yanaşılmadı. Bu gün dünya stereotiplərdən qurtulub və miqren beynin fərd üçün böyük önəm daşıyan ciddi xəstəliyi kimi qəbul olunub. Xəstəlik bədxassəli olmasa da, yəni öldürməsə də, xeyli dərəcədə şəxsiyyəti şikəst edir, insanın işgüzarlığına ziyan vurur, onu əldən salır, fəaliyyətini məhdudlaşdırır. Həyatın ən produktiv illərində, gücün, enerjinin aşıb-daşdığı dövrdə miqren çox tez-tez qadınlarda rast gəlinir. 20-50 yaşda qadın, təsəvvür edin, hansı ki, hər ay bu ağrını bir neçə gün ərzində yaşayır. Bu günləri təqvimdən silmək olar. "Lancet" jurnalında dərc olunan son tədqiqatların nəticələri göstərir ki, miqren insanı ən çox əldən salan xəstəliklər siyahısında ikinci yeri tutur.

Azərbaycana gəlincə, statistikaya görə, əhalinin 12%-i miqrendən əziyyət çəkir. Bu, böyük rəqəmdir. O insanların əksəriyyəti ayda minimum 1-2 gün işə çıxmır, özü də xatırladım ki, həyatının ən enerjili çağında. Bəs bütün bunlar cəmiyyətə neçəyə başa gəlir? Azərbaycanı deyə bilmərəm, Avropa Birliyində bu rəqəm ildə 27 milyard avro təşkil edir. Xəstələrin əzabları da öz yerində.

Miqrenin bioloji mexanizmi var. Bioloji kökü ilə yanaşı, o, genetik əsasa malikdir. Əfsus ki, bu sahənin öyrənilməsində elm, hələ ki, geri qalır. Miqren - gəlib-qayıdan xəstəlikdir. Heç kim deyə bilməz ki, tutmalar nə vaxt başlayacaq. Qadınların 25 faizində aybaşı zamanı rast gəlinir. Orqanizmin ona reaksiyası güclüdür - güclü pulyasiyalı ağrı, ürəkbulanma, səsdən və işıqdanqorxma. Pasiyent yalnız passiv oturmaq və uzanmadan savayı heç nə edə bilmir. Heç kimi eşitmək və görmək istəmir. Mənim təcrübəmdə hətta həftədə bir dəfə belə hala düşənlər olub. Dünya əhalisinin 2-3 faizi bu ağrıları həftədə bir dəfə keçirir.

Amma yaxşı xəbərlər də var. Bu il biz ABŞ-da preparatı qeydə aldıracağıq. Fikrimcə, bir aydan sonra artıq o, hazır olacaq, ilin sonuna kimi isə, ümid edirəm, bütün Avropada əlçatan olacaq. Bu, miqren üçün əhəmiyyət daşıyan molekullara qarşı bioloji antitellərdir. Ayda bir dəfə inyeksiya ilə müalicə edəcəyik. Çünki preparatın təsiri biraylıqdır. Bəli, bu - prosesdir. Ancaq başa düşmək lazımdır ki, bu preparat müalicə eləmir, yalnız miqrenin qabağını alır və təəssüf ki, yalnız 60-70% xəstəyə kömək edə biləcək. Ancaq biz başqa preparatları da sınaqdan çıxarırıq. Onların da effektli olacağını gözləyirik.

***- Doktor, bu gün vətənpərvərlik postmodernə məğlub olub. Bu gün yalnız siyasətçilər onu yada salmağı və "vətənpərvər ruhda tərbiyə"nin inzibati tətbiqini xoşlayırlar. Sizcə, ümumiyyətlə, məsələn, valideynləri necə sevmək və dəyərləndirməyi öyrənmək olar? Məgər aid olduğun coğrafiyaya bağlılıq hissi təbii deyil ki? Niyə söz çox, iş azdır? Sizdən ötrü vətənpərvərlik nədir?***

- Məhz yuxarıdakı səbəbdən mən də bu sözü sevmirəm. Həddən ziyadə o, gözdən salınıb, sıradan çıxarılıb. Azərbaycanı necə görmək istəyirəm? Cavab sadədir: öz xalqına xeyir vermək istəyən, ona yaxşılıq arzulayan adamlar öz plan və ideyalarını həyata keçirmək üçün imkanlara malik olmalıdır. Belə şəraiti yaratmaq isə dövlətin vəzifəsidir - bax, o vaxt iş görüləcək, patriotizm haqda az danışılacaq. Gəncliyə inkişaf etməyə imkan vermək və kömək eləmək lazımdır. Gəncliyi incitmək yox, əzizləmək və motivasiya eləmək gərəkdir. O zaman dövlətə, vətənə sevgi öz-özünə yaranacaq.

Mənə görə vətənpərvərlik, bir alim olaraq, öz xalqım qarşısında borcumdur. Bunu mənə heç kim öyrətməyib, izah eləməyib. Biliyimi, təcrübəmi paylaşmaq və həmvətənlərin biliklərini zənginləşdirmək ehtiyacı mənim özümdə sakitcə köks salıb. Tam ciddi deyirəm: Azərbaycan - yaxşı, ağıllı adamların ölkəsidir. Azərbaycanlıların əksəriyyəti düzgün düşünür, düzgün şeyləri deyir. Mən onların bu səmimiyyətini, işləmək və topluma fayda vermək istəyini müşahidə eləmişəm. Biz öz vətəndaşlarımızı müdafiə eləməli, İsrail nümunəsindəki kimi həvəsləndirməliyik. Fikrimcə, bu, bizim üçün yaxşı oriyentirdir. Bizim kompakt ölkəmizdə tərəqqi üçün hər cür şərait yaratmaq olar. Bundan ötrü insanların istəyi, bütün digər ilkin şərtlər də var.

***- Siz belə bir şey demişdiniz ki, "Azərbaycan 20-ci əsrin layihəsi kimi baş tutub və 21-ci əsrə möhkəm qədəm basıb". Amma bilirsiniz, Azərbaycanın prinsipcə bir dövlət olaraq mövcudluğu ilə razılaşmayanlar da var. Onlar bunu "anlaşılmazlıq", "Stalinin səhvi", nə gəldi adlandırırlar. Azərbaycanlılara isə özlərini müasir, gənc, perspektivli millət kimi göstərmək əvəzinə, müdafiə olunmaq, əks arqumentlər gətirmək, tam yad, lazım olmayan müstəvilərdə oynamaq, qədimliyə istinad eləmək zorunda qalırlar, sanki yalnız qədimilik bu ərazilərdə yaşamaq haqqı verir. Sizcə, Azərbaycanda haqqında ən çox danışılan yolumuz nə olmalıdır? Bizə unikal, öz yolumuz gərəkdirmi, öz həyatımızı qəlizləşdirmirikmi?***

- Nəyə işarə etdiyinizi anladım. Məni əsla ilgiləndirmir ki, başqaları haqqımızda nə düşünür. Biz azərbaycanlılar özümüzü səfərbər eləmişik və dövlət qurmuşuq. Bu fakt intellektual potensialdan, quruculuğa can atmadan və bizim xalqın iradəsindən xəbər verir. Biz, hələ ki, özümüzün axtarışındayıq və tarixdə hələ hər şeyi deməmişik. Ura-vətənpərvərlik lazım deyil, konkret işlə məşğul olmaq lazımdır. Azərbaycan cilalanmaya ehtiyacı olan almazdır, ondan brilyant düzəltməliyik. Əlbəttə ki, bu yolda obyektiv çətinliklər - mürəkkəb geosiyasi situasiya, bizi əhatə edən dövlətlərin oyunları, fitnə-fəsadları, bədniyyətlilər və s. problemlər var. Amma biz ruhdan düşməməliyik. Heç bir halda heç kim qarşısında əyilməməli, alçalmamalıyıq. Biz bütün qonşulara hörmətlə yanaşırıq, balanslı xarici siyasət aparırıq, daxili potensialımızla məşğul oluruq, neytrallığımızı bəyan edirik və qarşımıza məqsəd qoyuruq ki, gələcəkdə dünyaya innovasiyalar, "beyin" ixrac edəcəyik. Bizim yolumuz elə budur və ondan bizi döndərə bilməzlər. Bu ideyaların və məsələlərin həyata keçməsi üçün nə lazımdır? Ərazi, iqtisadiyyat, intellektual ehtiyat və istək. Hamısı da bizdə var və ən başlıcası - istənilən azərbaycanlı heç vaxt durğunluğun yox, inkişafın tərəfdarıdır.

❑ **Söhbətləşdi:**
**Ələkbər ƏLİYEV,**
**yazıçı, İsveçrə**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

# Sərkisyanın baş nazirliyi Ermənistanın sülhə gələcəyi ehtimalını dəfn etdi

## Xocalı qatili küçələrdəki erməniləri Azərbaycanla qorxudur; Qarabağdakı erməni tanklarının İrəvana aparıldığı xəbəri yayıldı; **politoloq:** "Serj Sərkisyanın baş nazir seçilməsi hələ onun qələbəsi demək deyil"

**Ermənistan paytaxtında baş verənlərin Azərbaycan üçün unikal şans yaratdığı barədə yazdıqlarımız artıq işğalçı ölkənin də əsas mövzularından birinə çevrilib. Əslində burada təəccüblü bir şey yoxdur, çünki Ermənistan öz havadarının köməyi ilə Azərbaycan ərazilərini elə ölkəmizdə qarışıq ictimai-siyasi atmosferin mövcud olduğu illərdə zəbt edib, indi də analoji fürsət Azərbaycan üçün yaranıb.**



Ancaq belə bir ehtimal da var ki, əslində Azərbaycanın bu fürsətdən yararlanmaq istədiyi barədə təbliğat aparmaq indiki dövrdə Serj Sərkisyanın özünə çox lazımdır. Reallıq budur ki, S.Sərkisyan xalq etirazlarına baxmayaraq, baş nazir kürsüsünü ələ keçirdi. Bundan sonra isə onun küçələrdəki insanları evlərinə qaytarmaqdan ötrü iki yolu qalır: ya silahı işə salıb etirazçı kütləni qan içində boğmaq, ya da Qarabağdakı quldurlarına Azərbaycana qarşı təxribatlara əl atmaq və nəticədə lokal əməliyyatların başlamasına nail olmaq. İkinci yol təhlükəli olsa da, ermənilərin diqqətini daxildən yayındırmaq üçün daha əlverişlidir. Ən azı bu mərhələdə S.Sərkisyan yenə də Rusiyanın dəstəyinə ümid edir. S.Sərkisyanın ilk təbriki V.Putindən alması da ondan xəbər verir ki, o, baş nazir kürsüsünü ələ keçirmək üçün Kremlin razılığını aldığı üçün sonadək direşdi və bundan sonra heç bir halda ermənilərin qanını tökməkdən çəkinməyəcək, istər İrəvanda olsun, istərsə də Qarabağda.

Aprelin 18-də Azərbaycan ərazilərini işğal altında saxlayan erməni silahlı bölmələrinin Ağcabədi rayonunun Qiyaməddinli kəndini atəşə tutması və dinc sakinimizin yaralanması da yuxarıdakı ehtimalların əbəs olmadığını deməyə əsas verir. Təxribat nəticəsində Yuxarı Qiyaməddinli kənd sakini, 1991-ci il təvəllüdlü Hacıyev Rahim Azər oğlu əkin sahəsində olarkən düşmən tərəfindən açılan atəş nəticəsində güllə yarası alıb. Xəstəxanaya yerləşdirilən R. Hacıyevin vəziyyəti qənaətbəxşdir. Müdafiə Nazirliyindən APA-ya faktı təsdiq edərək bildiriblər ki, son günlər Ermənistanda baş verən hadisələr fonunda qarşı tərəf qoşunların təmas xəttində təxribatların sayını artırıb. Düşmən hətta mülki obyektlərə və əhaliyə atəş açmaqdan belə çəkinmir.

Publika.az xəbər verir ki, İrəvanda Serj Sərkisyanın hakimiyyəti zəbt etməsinə - baş nazir seçilməsinə qarşı davam edən etiraz aksiyaları Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə də sıçrayıb. Xankəndidə bir qrup insan İrəvanda "Elk" fraksiyasının rəhbəri Nikol Paşinyanın liderliyi ilə aparılan etirazlara dəstək verib. Xankəndi küçələrinə çıxan insanlar "Sərkisyan, çıx get!" şüarlarını səsləndiriblər. Etirazların Qarabağa sıçraması İrəvanda ciddi narahatlıq yaradıb. Məlumatda deyilir ki, bu narahatlığın arxasında iki amil var: birincisi, İrəvan Azərbaycanın yaranmış situasiyadan yararlanaraq, Qarabağın azad edilməsi hərəkatına başlayacağından ehtiyat edir. İkincisi, Qarabağdakı ermənilərin könüllü şəkildə Ermənistandan imtina etməsi qorxusu var. Hər iki vəziyyət Azərbaycanın əlinə oynayır. Erməni ekspertlər hesab edirlər ki, Sərkisyan rejimi İrəvandakı aksiya ilə yanaşı, Qarabağdakı etirazları da susdurmaq üçün güc yoluna əl atacaq.

Yayılan digər məlumat da çox ilgincdir. Ermənistan paytaxtında Serj Sərkisyanın baş nazir seçilməsinə və nəticədə hakimiyyətinin ömrünü uzatmasına etiraz olaraq günlərdir davam edən etiraz hərəkatına görə Dağlıq Qarabağdan İrəvana tanklar göndərilib. Virtualaz.org xəbər verir ki, bu məlumatı Rusiyanın "Ekspress qazeta" (EG.ru) nəşri İrəvandakı mənbələrinə istinadən yayıb. Məlumatda deyilir ki, dünəndən başlayaraq İrəvan ətrafına ordu birləşmələri cəmləşdirilir. Habelə Dağlıq Qarabağdan tank birləşmələri İrəvana göndərilib və tezliklə şəhərə daxil olacaq. Deyilənlərə görə, etiraz hərəkatının lideri, deputat Nikol Paşinyan tərəfdarlarına bildirib ki, bu gündən Ermənistanda vətəndaş müharibəsi başlayacaq.

Xəbər verildiyi kimi, Nikol Paşinyan ötən gün Ermənistanda "məxməri inqilab"ın başladığını elan edib, inqilab komitəsi yaradıb. Onun bildirdiyinə görə, inqilab komitələri yerlərdə hakimiyyəti ələ alacaq. Hələlik İrəvanda etirazlar dinc məcrada davam edir və polis aksiyaçılara qarşı total güc tətbiqindən çəkinir. Baş verənlər isə Rusiyanın ekspert-siyasi dairələrində, KİV-lərində çox ciddi narahatlıqla izlənməkdədir. Çünki Sərkisyanın baş nazir olmasına etiraz edənlər antirusiya meyilli qüvvələrdir və indi bu qüvvələr Ermənistanda güclənməkdədir. Nəticədə Ermənistanda "rəngli inqilab" etmək istəyənlərə Rusiyadan mesajlar verilir ki, bir qədər də irəli getsələr, yeni hakimiyyətin üzərinə qəti hücuma keçsələr Azərbaycan bundan dərhal istifadə edəcək. Məsələn, "Vzglyad" qəzetində Andrey Babitski yazır: "Heç bir şübhə yeri yoxdur ki, Ermənistandakı siyasi böhran dərhal qonşu Azərbaycan üçün Dağlıq Qarabağı öz nəzarəti altına qaytarmağa yönəlmiş yeni cəhdlər üçün siqnal olacaq".

Müəllif bildirir ki, Ermənistanda iki millətçi qanad var. Bunlardan radikal millətçilər Rusiya ilə münasibətlərin kəsilməsinə çağırır, hesab edirlər ki, Rusiya Qarabağ məsələsində boşboğazlıqla məşğuldur. Azərbaycana kifayət qədər təsir etmir, əksinə, silah satır. İkinci qrup millətçilər isə Gürcüstandan, Ukraynadan və digər postsovet respublikalarından bizə yaxşı tanışdır. Onlar Avropaya inteqrasiya tərəfdarıdır və əmindirlər ki, Avropaya, Amerikaya yaxınlaşmaqla acınacaqlı iqtisadi vəziyyətlərini yaxşılaşdıracaqlar. Habelə indiki rejimin avtoritar kapsulunu sındıracaqlar. İfrat millətçilərlə bu avrointeqrasiya tərəfdarlarını antirusiya əhvali-ruhiyyəsi birləşdirir. Bu qüvvələr hesab edirlər ki, Rusiyadan aralanan kimi Ermənistan çiçəklənən və siyasi baxımdan qabaqcıl ölkə olacaq. İndiki situasiya Gürcüstanda Mixeil Saakaşvilinin hakimiyyətə gəlişi ərəfəsinə çox oxşayır. Müəllif onu da yazır ki, ola bilsin Rusiyaya qarşı dəhşətli və qarşısıalınmaz düşmənçilik bu qüvvələri Dağlıq Qarabağın itirilməsinə dözməyə də kömək edəcək...



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a bildirdi ki, S.Sərkisyan prezident olanda bir kürsünün sahibi idi, indi isə iki kürsüyə sahib olub: "O bir tərəfdən səlahiyyətləri artırılmış baş nazirdir, digər tərəfdən də prezident kürsüsündə öz adamını otuzdurub və ona da nəzarət edir. Əgər prezident ona qarşı nə vaxtsa baş qaldırarsa, parlament çoxluğu vasitəsilə onu kürsüdən uzaqlaşdıra bilər. Serj Sərkisyanın baş nazir seçilməsi hələ onun qələbəsi demək deyil. Bəli, indiki halda İrəvanda Sərkisyana qarşı etiraz dalğası səngiyə bilər. Ancaq vəziyyət hər an Sərkisyanın əleyhinə dəyişə bilər. Ermənistanda iqtisadiyyat və sosial durum bərbad gündədir və onu müsbətə doğru dəyişmək Sərkisyanın iqtidarında deyil. Maliyyə resursları yox, dövlət borcu isə artır, ağası Rusiya isə müttəfiqini bataqlıqdan çıxarmaq istəmir və heç buna imkanı da yoxdur, çünki özünün də iqtisadi vəziyyəti normal deyil. Dağlıq Qarabağa gəldikdə Serj Sərkisyandan yeni heç nə gözləmirəm. Eyni adamdır. Torpaqlarımızı işğal edən, Xocalı soyqırımını törədən şəxsdən nə gözləmək olar ki? O necə ki, prezident kürsüsündə ikən sülh danışıqlarında irəliləyişin əldə olunmasını əngəllədi, eləcə də baş nazir kimi münaqişənin həlli üçün heç bir addım atmayacaq. Bu isə o deməkdir ki, lokal toqquşmalar davam edəcək, cəbhə bölgəsindəki gərginlik azalmayacaq".

E.Şahinoğlu V.Putinin S.Sərkisyanı təbrik etməsini təbii qarşıladığını da qeyd edib: "Mən "Putin Sərkisyanı cəzalandırmaq istəyir" iddialarına əvvəldən də inanmırdım. Sərkisyan Kremlin icazəsi olmadan addım ata bilməz. Ermənistanın Avropa İttifaqı ilə imzaladığı aşağı səviyyəli saziş də Kremlin icazəsi ilə baş verib".

Amma məsələnin mahiyyətinə varsaq, Sərkisyanın baş nazirliyi Qarabağın dinc yolla azad olunması ehtimalını dəfn etmiş oldu. **Ermənişünas alim Qafar Çaxmaqlı** də hesab edir ki, Serj Sərkisyanın baş nazirlik dönəmində Ermənistanın Qarabağla bağlı apardığı ənənəvi siyasət davam edəcək: "Yeni işğal davam edəcək və bu şəxs bu məsələnin həlli üçün heç bir geri addım atmayacaq. Yenə Dağlıq Qarabağın erməni dövləti olaraq tanınması qarşılığında Qarabağın işğal olunmuş torpaqlarının geri verilməsi siyasəti davam etdiriləcək. Minsk Qrupu da bu işin içində olduğundan və onların da əsas məqsədləri bu olduğundan heç nə dəyişməyəcək. Bəziləri belə hesab edirdilər ki, hər üç ölkədə - Rusiya, Azərbaycan, Ermənistanda seçkilərdən sonra bu məsələdə irəliləyiş olacaq. Ancaq mən hesab edirəm ki, prinsiplər dəyişməyincə heç bir irəliləyişdən söhbət gedə bilməz". Bununla belə, Q.Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, Qarabağ danışıqlarının davam etdiriləcəyini güman edir: "Danışıqların intensivləşəcəyi gözlənilir. Həmsədrlər işğal olunmuş ərazilərin bir hissəsinin qeyd-şərtsiz boşaldılmasını tələb edəcəklər. Ermənistanı Rusiyanın da buna məcbur etmək istəyi var. Başqa cür problemin həlli yolunda irəliləyiş anlayışı yoxdur. Hələ ki, Madrid prinsipləri üzərində israr olunur. Bu da ilk mərhələdə ərazilərimizin bir hissəsinin azad edilməsi və sonrakı mərhələdə isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi məsələsini nəzərdə tutur".

Azərbaycan prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimində növbəti dəfə rəsmi Bakının Qarabağla bağlı prinsipial mövqeyini bəyan edib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 ildə bir sıra mötəbər təşkilatlar tərəfindən münaqişə ilə bağlı bizim təklifi qəbul edilərək, önəmli qətnamələr qəbul edilib. Bu qətnamələrdə göstərilib ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır" (APA). Münaqişənin həlli ilə bağlı hüquqi bazanın mövcud olduğunu xatırladan dövlət başçısı qeyd edib ki, Azərbaycan son 15 ildə Ermənistanın işğalçı siyasətini ifşa edib, Azərbaycanın səyləri nəticəsində Ermənistan bir çox regional layihədən təcrid olunub: "BMT Təhlükəsizlik Şurasının qətnamələri bu münaqişənin həlli üçün əsas hüquqi bazadır və biz haqlı olduğumuzu dünyaya bir daha sübut edə bilmişik. Erməni lobbi təşkilatları Azərbaycana qarşı kampaniyalar aparsa da, bu, beynəlxalq qərarlara təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma Dağlıq Qarabağı heç kim tanımır və tanımayacaq. Orda keçirilən referendumu qonşu ölkələr və beynəlxalq təşkilatlar pislədi. Biz dünya birliyinə onu da çatdırırıq ki, nəinki Qarabağ, indiki Ermənistan da Azərbaycanın tarixi torpağıdır. Bunu təsdiqləyən sübutlar var. Biz bir neçə deportasiyaya məruz qalmışıq və bunu dünyaya çatdırmalıyıq".

Bu isə həm Ermənistana, həm də onun havadarlarına ünvanlanmış növbəti xəbərdarlıq kimi qəbul olunmalıdır. Xatırladaq ki, bəzi çevrələrdə Azərbaycanda prezident seçkilərinin vaxtının dəyişdirilməsi həm də Qarabağla bağlı çox ciddi qərarın veriləcəyi ilə izah olunurdu.

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

**"Bakı məktəblərindən birində "Ədəbiyyat" fənnini tədris edən müəllim Almas İldırımın qarasıyca danışıb, uşaqlara deyirmiş ki, bu kafiri nahaq yerə dərsliklərə salıblar". Tanınmış köşə yazarı Zamin Hacı bu haqda sonuncu köşəsində qeyd edib.**

# Bakıda Almas İldırımı "kafir" adlandıran müəllim kimdir...

## **Musa Yaqub:** "Mənim də 3-4 şeirim var idi, onları da çıxartdılar"
## **Cəlil Cavanşir:** "Şairi "kafir" adlandırmaq üçün insanın ən azı şeirdən, poeziyadan anlayışı olmalıdır"
## **Elçin Mirzəbəyli:** "Həmin adam potensial İŞİD-çidir"
## **Cavid Zeynallı:** "Kafir damğası Almas İldırımın üstündən bir şey aparmaz"

Onun sözlərinə görə müəllimin şairi kafir adlandırmasına səbəb onun məşhur "Əsir Azərbaycan" şeirindəki bu misralar olub:

"Könlümə tək Kəbə etdim səni mən,
Sənsiz neynim qürbət eldə günü mən,
Sənsiz neynim Allahı mən, dini mən?!
Azərbaycan, mənim tacım, taxtım oy!
Oyanmazmı kor olası baxtım oy?!"

Xatırladaq ki, Azərbaycanın çox dəyərli, həm də mühacir şairi olan Almas İldırım vətəndən yazdığı "Əsir Azərbaycan" şeirində Azərbaycana, Bakıya, Xəzərə olan həsrətindən bəhs edib. Vətən həsrəti, qəribliyin hüznünü əks etdirən bu şeirə müxtəlif mahnılar da yazılıb. Onların arasında bəstəkar Eldar Mansurovun eyni adlı mahnısıdır, hansı ki, həmin mahnını xalq artisti Brilliant Dadaşova, müğənnilər Arzu Rzayev, Qismət və digərləri ifa edib. Məşhur ozan Araz Elsəs isə bu əsəri özünəməxsus ifa edib və onun ifası daha məşhur, populyardır.

Ümumiyyətlə, Almas İldırım 44 illik həyatında yaratdığı bütün əsərlərində Azərbaycana, vətənə olan sevgisini tərənnüm edib. O cümlədən Türkiyədəki həyatında jurnal və məcmuələrdə, qəzetlərdə milli şeirlərini nəşr etdirib, milliyyətçi və istiqlalçı bir şair olaraq tanınıb.



**Bəs bu gün milliyyətçi və istiqlalçı şairi bir misrasına görə onu "kafir" adlandırmaq nə dərəcədə doğrudur?**

**Azərbaycanın dəyərli şairi Musa Yaqub** "Yeni Müsavat"a danışaraq məsələyə bu cür mövqe bildirdi:

"Müəllimin bu cür davranışı heç cür doğru deyil. Niyə Almas İldırımı ittiham edirlər? Bəyənmirlər? Mənim də 3-4 şeirim var idi, onları da çıxartdılar. Heç arxasınca da baxmadım. Neyliyə bilərdim? Hər zaman demişəm, bu ədəbiyyatın işini ədəbiyyatçılara verin".

**Şair Cəlil Cavanşir** isə qeyd edib ki, ümumiyyətlə, hər hansı şairi "kafir" adlandırmaq üçün insanın ən azı şeirdən, poeziyadan anlayışı olmalıdır: "Təəssüf edirəm ki, ölkəmizdə təhsil sistemi xoşagəlməz haldadır. Orta məktəbdə dərs deyən müəllimlərin əksəriyyəti yerində olmayan adamlardır. Bir misrasına görə şairi kafir adlandıran adam böyük ehtimalla ədəbiyyatı, onun ölçülərini, nə də mənsub olduğu, ibadət etdiyi dini anlamır. Çünki "Əsir Azərbaycan" şeirində zərrə qədər də olsun tanrıya üsyan, kafirlik kimi bir şey yoxdur".

**Politoloq, jurnalist-şair Elçin Mirzəbəyli** isə qeyd edib ki, Almas İldırımın vətən sevgisini mübaliğəli və müqayisəli şəkildə ifadə edən misralarına görə "kafir" adlandıran bir müəllimin nəinki övladlarımıza dərs deməyə, heç bu ölkədə yaşamağa haqqı yoxdur:

"Bu adam potensial İŞİD-çidir. Bu, terrorçu təfəkkürüdür. Poetik bir nümunəyə, həm də vətən həsrəti ilə yazılan misralara görə bir insana "kafir" demək üçün gərək gecə-gündüz terrorçuların ideoloqlarının çirkli əllərini öpərək zombiləşən, şüursuz, beyinsiz bir məxluq, canlı olasan. Bələlərini təhsil müəssisələrinin kandarına buraxmaq lazım deyil".

**Jurnalist, yazar Cavid Zeynallı** da "Əsir Azərabaycan" şeirinin Azərbaycan ədəbiyyatının ən gözəl nümunələrindən biri olduğunu vurğulayıb:

"Almas İldırım faciəvi tale yaşayıb, ömür boyu vətən həsrəti çəkib. Mən sizdən eşidirəm ki, hansısa müəllim onu «kafir» adlandırıb. Əlimdə fakt yoxdur, ümumiyyətlə, bu, təsdiq olunmayıb. Ona görə də mən hər hansı bir müəllim haqqında "deyilənə görə" fərziyyəsinə əsaslanıb haqsız fikir deyə bilmərəm. Şeirdəki oxşar bənzətmələr təkcə Almas İldırımda yox, onlarla başqa şairlərdə də var. Poeziya bu məsələdə sərhəd tanımır. Ümumiyyətlə, kafir anlayışı dinlə bağlıdır. Dində də məcburiyyət yoxdur, ona görə də hətta hər hansı müəllim bu fikri səsləndirsə belə, qeyri-ciddi, əsassız arqument hesab edirəm. Kafir damğası və bu iddia Almas İldırımın üstündən bir şey aparmaz. İkincisi də, bir müəllimin təklifi ilə şeir dərslikdən çıxarılmır. Məsələ bu qədər sadədir".

**❑ Xalidə GƏRAY,**
**Musavat.com**

# Tikinti materialları bahalaşıb - səbəb nədir...

## İqtisadçılar sahibkarların qiymət artımı ilə bağlı arqumentlərini əsaslı saymır

**Son günlər tikinti materialları bazarında yenidən bahalaşma qeydə alınıb. Sonuncu dəfə manatın ardıcıl iki dəfə devalvasiyasından sonra tikinti materiallarının qiymətində nəzərəçarpacaq səviyyədə qiymət artımı baş vermişdi.**

Xüsusilə də manatın məzənnəsində dollara nisbətdə ucuzlaşma olandan sonra taxtanın kubunun qiyməti kəskin şəkildə artaraq 100 manatdan da çox bahalaşmışdı. Bahalaşma armatur və eləcə də xaricdən gətirilən bütün növ tikinti materiallarında müşahidə olunurdu. Lakin bir müddət idi ki, tikinti materiallarının qiyməti sabit qalmışdı. Satıcılar bildirirdilər ki, bu, manatın məzənnəsindəki sabitliklə əlaqədardır. Manat yenə də sabit olaraq qalıb.

**Bəs nə üçün tikinti materiallarının qiyməti qalxıb?**

Suala cavab tapmaq üçün "Yeni Müsavat"ın əməkdaşı olaraq tikinti materiallarının satıldığı bazara yollandıq. Müşahidə etdik ki, yenə də bahalaşan əsasən taxtanın qiymətidir. Belə ki, hazırda taxtanın 1 kubunun qiyməti 320-340 manatadır ki, bu da bir neçə ay öncə ilə müqayisədə 15 manatdan çox, ötən illə müqayisədə 50 manata qədər bahalaşma deməkdir. Manatın birinci devalvasiyasından öncə isə taxtanın bir kubunun qiyməti 170 manat civarında idi. Eyni zamanda yenə də armaturun qiymətində artım var. Satıcılar bildirdilər ki, əsasən Rusiyadan gətirilən materialların qiyməti yüksəlib. Digər materialların qiymətində isə elə də bahalaşma olduğunu müşahidə etmədik. Bazardakı ümumi vəziyyətə gəlincə isə müşahidə etdik ki, müştərilərin sayı əvvəlki aylarla müqayisədə artıb. Bunu satıcıların özləri də təsdiqlədilər. Tamet daşlarının satıcısı Asif Əsgərov söylədi ki, bu növ tikinti materiallarının qiyməti qalxmayıb: "Yerli istehsal olduğu üçün bizdə qiymətlər əvvəlki kimidir. Bazarda artıq tələbat artdığı üçün qiymətləri süni şəkildə qaldıranlar da var. Ümumiyyətlə, bu aylarda tikintilər başladığı üçün bazarda qiymətlər az da olsa dəyişir. Hazırda bazarda müştəri qənaətbəxş səviyyədədir. Devalvasiyadan sonra bazarda ancaq satıcılar olardı. Elə olurdu ki, günlərlə bir nəfər müştəri gəlib materialla maraqlanmırdı. Camaat tikinti işlərini tamamilə dayandırmışdı. Bu il isə qış aylarında da bazarda aktivlik oldu. İndi isə havalar qızır və material alanların da sayı ötən illə müqayisədə xeyli artıb. Yəni ki, bu da qiymətə təsir göstərir".

Bazarda alçipan, növündən asılı olaraq, 8-10 manat, lambirin 4-6 manat, mərmər 40-60 manat, tamet daşlar 6-8 manat, dəmir örtüklərin kvadratı isə 4-8 manat arasında dəyişən qiymətlərlə satılır. Sementin bir kisəsinin qiyməti, markasından asılı olaraq, 5-6 manat, şebenin kisəsi isə 40 qəpiyə satılır. Yəni ötən aylarla müqayisədə bu materialların qiymətində, demək olar ki, artım yoxdur.

Yuxarıda qeyd etdiyimiz kimi, armaturun da qiymətində artım var. Hazırda armaturun bir tonu 800 manata satılır. Bu isə təxminən 10 manat bahalaşma deməkdir. Satıcılar bildirdilər ki, hər il bu aylarda armaturun qiymətində artım olur. Payız ayları yaxınlaşdıqda isə qiymətlər qalxdığı qədər enir.

Bazardakı vəziyyətlə bağlı **"Yeni Müsavat"a danışan iqtisadçı Natiq Cəfərli** bildirib ki, əslində hazırkı iqtisadi duruma görə, Rusiyadan gətirilən materialların qiymətində artım yox, enmə olmalıdır:

"Çünki rublun dəyərdən düşməsi Rusiyadan idxalı ucuzlaşdırır və daha sərfəli hala gətirir. Son zamanlar rubl təqribən 12 faiz dəyərdən düşüb. Bahalaşma əgər Rusiyadan gətirilən məhsullarda müşahidə olunursa, bunu iqtisadi məsələ ilə izah etmək çətindir. Yaz ayları gəldikcə, təmir-tikinti işlərinin həcmi artır. Bu, Azərbaycanda hər zaman belə olub. Ötən illə müqayisədə dövlət layihələrinin həcmi çoxalıb. Bu sahədə xeyli irəliləyiş var. Həm sosial evlərin inşasına start verilib, həm də şəhərin müxtəlif yerlərinin sökülməsinə və müxtəlif binaların tikintisinə start verilib. Yəni təmir-tikinti işləri həm fərdi qaydada, həm də dövlət layihələrinin icrası baxımdan xeyli artıb. Bu, tələbin artmasından doğan qiymət yüksəlməsidirsə, bunu anlamaq olar. Ancaq, əslində qeyd etdiyim kimi, Rusiyadan gələn məhsullarda bu, baş verməli deyildi".

Ekspert hesab edir ki, dövlətin buna birbaşa müdaxilə etməsi əlavə qiymət artımlarına səbəb ola bilər:

"Əslində buna dövlət tərəfindən nəzarətin olması, dövlətin qiymətləri tənzimləməsi və müdaxiləsi doğru deyil. Bu, bir müddət sonra əksinə, daha da böyük qiymət artımına səbəb olur. Dövlətin əlində kifayət qədər alətlər var ki, birbaşa müdaxilə etmədən, qiymətləri tənzimləyə bilsin. Bu, gömrük rüsumları, vergi dərəcələridir. Əgər hər hansı bir qiymət artımı varsa və yerli istehsal yoxdursa, dediyim məsələlər nəzərə alınmalıdır. Azərbaycanda da taxta istehsalı çox aşağı səviyyədədir. Armatur istehsalı olsa da, bu da tələbatı ödəyəcək səviyyədə deyil. Ona görə də burada gömrük rüsumunu aşağı çəkmək olar və ya rəqabətli mühiti daha da genişləndirmək olar ki, təşviq addımları ilə daha çox fiziki şəxslər ölkəyə tikinti materialları gətirsinlər. Bu təşviq olacaqsa, bazarda bolluq olarsa, qiymət də tənzimlənəcək. Birbaşa müdaxilə isə faydalı deyil".

**❑ Əli RAİS.**
**"Yeni Müsavat"**
**❑ Fotolar müəllifindir.**








YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

# Lombard sahibi 122 nəfərin qızılını götürüb Gürcüstana qaçdı

**Zərərçəkən:** "Deyir ki, 50 min verib canımı qurtarmışam, nə bilirsiniz edin"

**Abşeron rayonu, Mehdiabad qəsəbə sakini Səidə Əhmədova lombarda 10 min manatlıq qızıl-zinət əşyalarını girov qoyub, 600 manat pul götürüb. Yaşlı qadın deyir ki, həmin 600 manat ona onkoloji xəstəlikdən əziyyət çəkən gəlininin müalicə xərclərinə lazım olub. Lombarda 600 manatı da, faizlərini də 2 il 6 ay əvvəl qaytarıb, lakin 10 min manatlıq qızıl-zinət əşyalarını bu günə qədər ala bilməyib: "Lombard Mehdiabadda "Araz" marketə bitişik idi.**

Sahibi Firuz Novruz oğlu Əliyev idi, qızılları girov olaraq bizdən o, aldı. Əlimizdə də onun imzası, möhürü olan sənədlər var. 10 min manatlıq qızıl alıb, 600 manat pul verib. 2 il yarımdır ki, gedib-gəlirəm. O qədər əsəbiləşdirdilər ki, infarkt da keçirdim. 3 aya yaxın xəstəxanada qaldım. Axırda Firuza dedim ki, qızıllarımızı hansı banka qoymusan, de, gedək qızılları götürək. Demədi. Nəhayət, bu oldu ki, Firuz ölkədən qaçıb. Mehdiabad polisinə gedib-gəlməkdən ayaqlarım yoruldu. Mənim kimi 122 nəfər zərərçəkən var".

Səidə Əhmədova deyir ki, lombard sahibinin himayəçiləri var, ona görə də həbs edilmir: "Biz Firuzun yanına uzun-uzadı get-gəllərdən sonra dedi ki, mən özümü qurtarmaq üçün 50 min dollar vermişəm, gedin kimə istəyirsiz şikayət edin. Biz də Xırdalan Rayon Polis İdarəsinə getdik. Bizi Əsgər müəllim qəbul edib şikayət ərizələrimizi aldı. Amma ortada nəticə olmadı. Firuz arvad-uşağını aparıb Tovuzda qayınatasının evinə yerləşdirib, özü də ölkədən qaçıb gedib. Ona sərhəddən çıxmasına niyə imkan veriblər, bilmirəm".

S.Əhmədova deyir ki, evinə pensiya pulundan başqa gəlir daxil olmur: "Ailədə 5 nəfərik, hər beşimiz əlilik. Dolanışığımız ağırdır, çətindir. Pensiya almasaq, yaşaya bilmərik. Gedib-gəlmək üçün pulumuz yoxdur. Həmin qızıllar gəlinlərimin, özümün idi. Bir yerə toplayıb aparıb lombarda qoyub 600 manat götürmüşdük. Həmin qızılları ələ keçirdilər. İndi də Firuz qaçıb, onu axtaran yoxdur. Bunu Allah götürər?"

Səidə Əhmədova hüquq-mühafizə orqanlarına müraciət edərək lombard sahibi Firuz Əliyevin Gürcüstanda saxlanılaraq Azərbaycana gətirilməsini, onların qızıllarının geri qaytarılmasını istəyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Cəlilabadda müəllim məktəbin xidmətçisini zorladı

**Direktor:** "Kənd camaatı müəllimin evinin həyətinə tökülüşüb üsyan edirdilər"



**Cəlilabad rayonunda müəllim məktəbin xidmətçisini zorlayıb. "Report"un Aran bürosunun əldə etdiyi məlumata görə, hadisə rayonun Muğan kənd tam orta məktəbində baş verib. Belə ki, həmin məktəbin müəllimi B.A. (ad şərtidir) 2017-ci ildə həmin məktəbin təmizlik işçisi A.Z.-yə təcavüz edərək onunla cinsi əlaqədə olub və həmin anı mobil telefonu vasitəsilə videoqeydiyyata alıb.**

Bir neçə gün bundan əvvəl məktəbin müəllimi B.A. yenidən işçisi ilə cinsi əlaqəyə girmək istəyib. Lakin təmizlik işçisi buna etiraz edib. B.A. onunla cinsi əlaqədə olmasını əks etdirən videogörüntüləri sosial şəbəkələrdə yaymaqla şantaj edib. Təmizlik işçisi onunla yenə də cinsi əlaqədə olmaq istəmədiyini bildirib. Bundan sonra müəllim həmin videogörüntüləri kənd sakinləri arasında yayıb.

Baş verən hadisə ilə bağlı kənd sakinləri tərəfindən Cəlilabad Rayon Polis Şöbəsinə müraciət edilib. Polis şöbəsində araşdırmalara başlanılıb.

Cəlilabad rayonunda müəllimin məktəb işçisini zorlaması hadisəsinin bəzi təfərrüatı məlum olub.

Muğan kənd tam orta məktəbinin direktoru Aygün Məlikovanın AzNews.az-a verdiyi məlumata görə, hər iki şəxs hazırda polis şöbəsindədir:

"Biz də hadisədən dünən xəbər tutmuşuq. Adı zorlamada hallanan hər iki şəxs ailəlidir, uşaqları var. Səhər məktəbə gələndə heç birini yerində tapmadım. Onları danışdırmadan heç nə deyə bilmərəm. Amma yazıblarsa, deməli, hamı görüb. Hazırda hər ikisi polis şöbəsində dindirilir. Gözətçi 28, müəllim isə 34 yaşındadır".

Direktor A.Məlikova ölkə.az-a açıqlamasında hər iki şəxsi belə xarakterizə edib: "B.A altı ildir bizim məktəbdə ibtidai sinif müəllimi işləyir, 34 yaşı var. Mən bu məktəbə iki ildir rəhbərlik edirəm. Qadın isə məktəbimizin təmizlik işçisi yox, gündüz gözətçisidir. Hər ikisi ailəlidir. Gözətçinin iki, müəllimin bir övladı var. Bu müddətdə onların hansısa münasibətinin olmasını hiss etməmişik. Hər ikisi hər gün məktəbdə olur".

Direktor bildirib ki, dünəndən Muğan kənd sakinləri müəllimi axtarır:

"Kənd camaatı müəllimin evinin həyətinə tökülüşüb üsyan edirdilər. Qapısında iki yüzdən çox adam var idi. Amma nə qadın, nə də müəllim ortada yoxdur. Qadın şikayəti edəndən sonra gecəylə qaçmışdı. Bildiyimə görə, hazırda hər ikisi polis idarəsindədir. Dünənə qədər hər ikisi işə gəlirdi. Mənim qızlarımdan biri də həmin müəllimin sinfində oxuyur. İnanın ki, özüm dünəndən qorxu, həyəcan içindəyəm, yatmamışam.

Qarovulçunun evi ilə məktəbin həyəti bitişikdir. Kənd camaatına da deyirəm ki, mən məktəbin məsuliyyətini daşıyıram. İşçilərin işdən sonra etdiklərinə cavabdeh deyiləm".

A.Məlikova qeyd edib ki, müəllimlə gözətçinin intim münasibətini əks etdirən videogörüntü kənddə yayılıb:

"Onların münasibətini əks etdirən video var. Mən o videoya baxmamışam. Ancaq baxanlar deyirlər ki, ora məktəb deyil, başqa evdir. Həmin görüntülər kəndin bütün oğlanlarının telefonlarında var. Videoda müəllimin yox, ancaq gözətçinin üzü görünür. Bunu mənə bayaq müəllimin həyat yoldaşı dedi ki, o videodakı bizim ev deyil. Baxmaq istədim, həyat yoldaşım icazə vermədi ki, baxılası deyil".

Cəlilabad Rayon Prokurorluğu rayonda baş vermiş təcavüz hadisəsi barədə məlumat yayıb.

Rayon Prokurorluğundan "Report"a verilən məlumata görə, Cəlilabad rayonu, Muğan kənd sakini Rəna Cəfərovanın (ad, soyad şərtidir) həmkəndlisi Qadir İsayev (ad, soyad şərtidir) tərəfindən bir il əvvəl zor tətbiq edilməklə seksual xarakterli zorakılıq hərəkətlərinə məruz qalması, eləcə də sonuncunun həmin hərəkətləri mobil telefonla çəkərək yayması faktına görə Cəlilabad Rayon Polis Şöbəsinin İstintaq Bölməsində Cinayət Məcəlləsinin 150.1 (seksual xarakterli zorakılıq hərəkətləri) və 242-ci (pornoqrafik materialları qanunsuz yayma) maddələri ilə cinayət işi başlanıb.

R.Cəfərova iş üzrə zərərçəkmiş şəxs qismində tanınaraq dindirilib, müvafiq ekspertizalar təyin edilib və digər zəruri prosessual hərəkətlər aparılıb.

Q.İsayev iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.



# "Nar" ADA Universiteti ilə əməkdaşlığı genişləndirir

**18 aprel 2018-ci il tarixdə imzalanmış əməkdaşlıq razılaşması ilə "Nar" və ADA Universiteti mövcud əməkdaşlığı genişləndirməyə qərar verdilər. Nəzərdə tutulmuş layihələr arasında yüksək nəticələr göstərən tələbələrə dəstək üçün ADA Universiteti Fondu ilə əməkdaşlıq, startap layihələri dəstəkləyən ADA İnnovasiya Mərkəzi ilə tərəfdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər mövcuddur.**

**Razılaşmanın imzalanma mərasimində "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke ADA Universiteti ilə əməkdaşlığın "Nar"ın irimiqyaslı korporativ sosial məsuliyyət layihələrinin reallaşdırılması baxımından böyük perspektivlər vəd etdiyini bildirdi.**

**"Mən inanıram ki, bu məhsuldar tərəfdaşlıq platformu ölkədə təhsil və maariflənmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə və yeni innovativ layihələrin inkişafına böyük töhfə verəcəkdir", - deyə cənab Panke qeyd etdi.**

**ADA Universitetinin prorektoru Fariz İsmayılzadə elm və təhsil layihələrinin "Nar"ın sosial məsuliyyət strategiyasının əsas istiqamətlərindən biri kimi dəyərləndirildiyi üçün mobil operator nümayəndələrinə minnətdarlığını bildirdi: "ADA-nın təklif etdiyi karyera yönümlü müasir akademik proqramlar nəzəriyyə ilə təcrübəni bir araya gətirir. Bu mənada "Nar"ın öz sahəsi üzrə geniş təcrübəyə malik peşəkarlarının tələbələrimizlə quracaqları ünsiyyətin böyük fayda verəcəyinə biz də inanırıq".**

# Ata ehtiyatsızlıqdan 4 yaşlı oğlunu maşının altında qoyub öldürdü

**Zabrat qəsəbəsində yaşayan Adil İsmayılov avtomobillə ehtiyatsızlıqdan oğlu 4 yaşlı Ayxanı vurub və nəticədə uşaq hadisə yerində ölüb. DİN-dən Trend-ə verilən məlumata görə, hadisə aprelin 17-də saat 17 radələrində baş verib.**

Adil İsmayılov evinin həyətində "Range Rover" markalı avtomobili arxaya sürərkən oğlu 4 yaşlı Ayxanı vurub və uşaq hadisə yerində ölüb.

Sabunçu RPİ tərəfindən araşdırma aparılır.

## Elan

**Nesterov Vadislav Arifoviçin adına olan Qaradağ rayonunun Lökbatan qəsəbəsi, Massiv 2, ev 37 ünvanın kupçası itdiyi üçün etibarsız sayılır.**




# Cəlilabadda "Bakcell"in yenilənmiş Satış və Müştəri Xidməti Mərkəzi təqdim edildi

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" təklif etdiyi xidmət və məhsullarını müştərilərə daha da yaxın etmək üçün ölkənin bütün regionları üzrə öz satış və xidmət mərkəzləri şəbəkəsini genişləndirməyə davam edir. Bu fəaliyyətin davamı olaraq Cəlilabadın mərkəzində, Qurtuluş küçəsi 70 ünvanında tam olaraq yenilənmiş diler mağazası və xidmət mərkəzi ("Bakcell"İM) istifadəyə verilib.**

**Tam yeni konsepsiya əsasında qurulmuş müasir Satış və Müştəri Xidməti Mərkəzində şirkətin məhsul və xidmətərinin tam çeşidi ilə yanaşı, ən son mobil cihazlar və aksessuarlar təklif edilir. Cəlilabad sakinləri yenilənmiş satış və xidmət mərkəzində "Bakcell"in bütün məhsul və xidmətləri barədə məlumat ala, mobil nömrə və istənilən cihazı əldə edə bilərlər.**

**"Bakcell"in innovativ və ən müasir məhsul və xidmətlərini Bakı sakinləri ilə yanaşı, Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərə daha əlçatan etmək üçün çalışırıq. Bu regionlar sırasında Cəlilabad xüsusi yerə malikdir və burada şirkətimizin fəaliyyətinin genişləndirilməsi üçün biz əlimizdən gələni edirik",-deyə "Bakcell" şirkətinin baş satış direktoru Zaur Bayramov bildirib.**

**"Bakcell" şirkəti özünün yüksək keyfiyyətli xidmətlərini Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə təqdim etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirir.**

YENİ MÜSAVAT
N 84 (6973) 19 aprel 2018

# Tramp-Kim görüşü dünyanı dəyişəcəkmi...

## Politoloq: "Bu, çox önəmli hadisədir və tərəflərin siyasi çözümdə maraqlı olduğunu göstərir"

**Tramp Şimali Koreya ilə barışmaq üçün ciddi addımlar atır. "Vaşinqton Post" qəzeti ABŞ-ın yeni təyin olunmuş dövlət katibi, Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş direktoru Mayk Pompeonun bu ayın əvvəlində Şimali Koreyaya gizli səfər etdiyini yazıb. Xəbərdə qeyd olunur ki, Şimali Koreyaya səfər edən Pompeo burada ölkə lideri Kim Conqla görüşüb.**



Qərb mediasının iddiasına görə, Pompeonun Koreyaya səfəri Tramp və Kim arasında planlaşdırılan görüşlə bağlı olub. Ehtimal ki, səfər zamanı görüşün və aparılacaq danışıqların detalları müzakirə olunub.

Xatırladaq ki, 4 il əvvəl - 2014-cü ildə o zaman Mərkəzi Kəşfiyyat İdarəsinə rəhbərlik edən Ceyms Klepper də Şimali Koreyaya səfər edib. Ancaq Klepperin səfərinin əsas məqsədi Şimali Koreyada həbsdə olan iki amerikalının azad edilməsi olub.

Donald Tramp isə Şimali Koreya lideri ilə birbaşa görüşüb danışıqlar aparmaq niyyətindədir. Tramp bu görüşün iyun ayında olacağını ehtimal etmişdi. Ancaq gedişatdan belə məlum olur ki, Vaşinqton özü də Şimali Koreya ilə tez bir zamanda barışmağa meyillidir. **Əcəba, nədən?** ABŞ-ın bir neçə ay əvvələ qədər müharibə eşiyinə gələn, saysız-hesabsız sanksiya və embarqoları tətbiq etdiyi və liderini "dəli" adlandırdığı, sərhədlərinə ordu belə göndərdiyi ölkə ilə sürətli şəkildə barışmaq istəyir. Hətta ölkənin "baş kəşfiyyatçısını" bunun üçün Pxenyana göndərib.

**Siyasi şərhçi Şahin Cəfərli** deyir ki, ABŞ üçün təcili həlli tələb olunan 1 saylı xarici siyasət və təhlükəsizlik problemi Şimali Koreya məsələsidir. Ekspertin fikrincə, son bir il ərzində raket-nüvə sınaqlarını intensivləşdirən Şimali Koreya rejimi ABŞ-ın regional müttəfiqləri, regiondakı ABŞ hərbi bazaları ilə yanaşı, ABŞ-ın özü üçün də real təhlükə halına gəlib. Bu səbəbdən də Tramp danışıqları sürətləndirib: "Bu il yanvarın 1-də Kim Çen İn Yeni il müraciətində bəyan etdi ki, artıq onun ölkəsi ABŞ-ın istənilən nöqtəsinə nüvə zərbəsi endirmək imkanına malikdir. ABŞ kəşfiyyatı da etiraf etdi ki, onlar Şimali Koreyanın imkanlarını real qiymətləndirə bilməyiblər. Kəşfiyyat daha əvvəl prezident Trampa məruzə etmişdi ki, Şimali Koreya 2020-2022-ci ilə qədər ABŞ ərazisini vurmaq imkanına malik olmayacaq və problemin ya siyasi, ya da güc yolu ilə həlli üçün həmin dövrə qədər vaxt var. Lakin rejimin ötən ilin ikinci yarısında keçirdiyi raket-nüvə sınaqlarından sonra məlum oldu ki, Şimali Koreya artıq belə bir imkanı əldə etməyə yaxındır. Bu isə təcili tədbirlərin görülməsini aktuallaşdırdı. ABŞ bir tərəfdən siyasi-diplomatik istiqamətdə səylərini fəallaşdıraraq BMT sanksiyaları vasitəsilə Şimali Koreya üzərində təzyiqi gücləndirdi, digər tərəfdən isə regiona aviadaşıyıcılar və müşayiətçi gəmilər göndərərək, eyni zamanda Cənubi Koreyada əlavə THAAD raket hücumundan müdafiə sistemləri quraraq güc nümayiş etdirdi. Şübhəsiz ki, ABŞ-ın Şimali Koreyanı məğlub etmək, hətta bu ölkəni tam məhv etmək üçün kifayət qədər gücü var. Lakin hərbi variant çox risklidir. Bu halda həm Cənubi Koreya və Yaponiya, həm də bu ölkələrdə dislokasiya olunmuş ABŞ hərbçiləri ciddi risk altında qalmış olacaq. Bu iki ölkədə ABŞ-ın təxminən 75 min hərbçisi var. Zabitlərin ailələrini də əlavə etdikdə, böyük bir rəqəm alınır. Bundan başqa, Sakit okeandakı Quam adasında da ABŞ Hərbi Hava Qüvvələrinin bazası fəaliyyət göstərir. Orada da hərbçilər və ailələri yaşayır. Müharibə başladıqda Şimali Koreya ilk növbədə ABŞ-ın Cənubi Koreya, Yaponiya və Quamdakı hərbi bazalarına raket zərbələri endirməyə çalışacaq. Aydındır ki, ABŞ-ın raket hücumundan etibarlı müdafiə sistemləri var, lakin kütləvi raket zərbələri zamanı təminat yoxdur ki, həmin raketlərin hamısı uğurla vurulacaq. Ən ciddi təhdid altında olan tərəf isə Cənubi Koreyadır. Təsəvvür edin ki, paytaxt Seul şəhəri Şimali Koreya sərhədindən cəmi 25 km aralıda yerləşir. Bu isə o deməkdir ki, əsas hissəsində 10 milyon insanın yaşadığı və ətrafları ilə bərabər 24 milyon əhalisi olan böyük şəhər Şimali Koreya artilleriyasının atəş mənzilindədir. Şimal ordusu sərhəddə minlərlə artilleriya qurğusu, reaktiv atəş sistemləri yerləşdirib və müharibə başladığı anda onlar eyni anda Seulu atəşə tutmağa başlayacaqlar. Bu halda Seulda hansı vəziyyətin yaranacağını təsəvvür etmək çətin deyil. Ümumilikdə həm Şimali Koreyanın, həm də ABŞ və Cənubi Koreyanın qarşılıqlı zərbələri nəticəsində yüz minlərlə insan ölə bilər. Bundan başqa, dünyanın texnoloji baxımdan öndə gedən ölkələrindən olan Cənubi Koreya iqtisadiyyatı çökmə riski ilə üzləşər. Belə bir kabus ssenarisini heç kim arzulamır".

Ş.Cəfərli deyir ki, Tramp və Kim nə qədər dəlisov olsalar belə, müharibənin nələrə səbəb ola biləcəyini onlar da yaxşı başa düşürlər. Buna görə də hər iki tərəf yumşalma jestləri edir: "Məhz bu səbəblə fevral ayında keçirilən son qış Olimpiya oyunlarından etibarən regionda yumşalma müşahidə olunmağa başlayıb. Bilirsiniz ki, Şimali Koreya liderinin bacısının başçılıq etdiyi nümayəndə heyətinin cənuba səfəri ilə bu problem ətrafında diplomatik intensivlik artıb. Bu yaxınlarda Kim Çen İn Çinə səfər etdi, indi isə Çin liderinin cavab səfəri gözlənilir. Cənubi Koreya prezidentinin də şimala səfəri planlaşdırılıb. Ən çox maraq doğuran məsələ ilə Donald Tramp və Kim Çen İn arasında planlaşdırılan görüşdür. Bu gün məlum oldu ki, ötən günlərdə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru və dövlət katibi vəzifəsinə namizəd Mayk Pompeo Şimali Koreyaya səfər edərək Kim Çn İn ilə görüş keçirib. Bu, çox önəmli hadisədir və tərəflərin siyasi çözümdə maraqlı olduğunu göstərir".

Ekspertə görə, Şimali Koreya liderinin yumşalması 2 amillə əlaqədardır. Bunlardan birincisi, sanksiyaların xeyli ağırlaşması və son olaraq ölkəyə yanacaq ixracına da qadağa qoyulması şimali koreyalıların müharibə həvəsini azaldıb. İkincisi isə Pxenyan üzərində ciddi təsir imkanları olan Çinin bu məsələdə ciddi rolu olub: "Çin müharibənin baş verməsində qətiyyən maraqlı deyil. Çünki müharibə regionda ABŞ-ın mövqelərini daha da möhkəmləndirəcək və ABŞ hərbi mövcudiyyətinin daha da artmasına səbəb olacaq. Şimali Koreyanın məğlub olacağı təqdirdə Çin və ABŞ hərbi bazalarının olduğu Cənubi Koreya arasına bufer zonası aradan qalxmış olur, bu isə Çinin mühasirə həlqəsinin daha da daralması deməkdir. Çin belə bir vəziyyətin yaranmasını arzulamır. Sülh əldə olunacağı təqdirdə, ABŞ regiondakı hərbi qüvvələrini çıxarmasa belə, ən azı onları gücləndirməsi üçün ortada səbəb olmayacaq, hətta tədricən qüvvələrini azaltmağa başlayacaq. ABŞ, eləcə də Cənubi Koreya və Yaponiya Şimali Koreyanın nüvə silahından tam imtina etməsini tələb edir. Tramp-Kim görüşündə müzakirə mövzusu bu olacaq. Yayılan xəbərlərə görə, Pxenyan bu məsələdə uzlaşmağa hazırdır, lakin əvəzində tələb edir ki, ABŞ rejimin təhlükəsizliyinə təminat versin və onu tanısın. Yəni "biz nüvə silahından vaz keçirik, əvəzində siz də söz verin ki, bizə toxunmayacaqsınız". Təbii ki, bu halda bütün sanksiyaların ləğvi və Şimali Koreyanın beynəlxalq izolyasiyadan çıxması da gündəmə gələcək. Bu, optimist ssenaridir. Lakin anlaşma əldə olunmaya da bilər. Bu halda müharibə riski yenidən artacaq".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# ABŞ prezidentinin yeni Suriya strategiyası - kürdlərə daha çox dəstək, ərəbləri isə...

## Yaxın dövrdə Ankara-Vaşinqton xəttində gərginlik arta bilər

**ABŞ Müdafiə Nazirliyinin (Pentaqon) gələnilki büdcəsində Suriyada silahlı qruplara 300 milyon dollar ayrılması nəzərdə tutulur. "Sputnik" xəbər verir ki, bu faktı Türkiyə mətbuatı üzə çıxarıb. Söhbət Suriyada İŞİD-ə qarşı mübarizə aparan qrupların, konkret olaraq Suriya Demokratik Qüvvələrinin dəstəklənməsi layihəsindən gedir. Hansı ki, aralarında PYD/YPG kimi terror təşkilatları da var.**



Məlumatda bildirilir ki, Pentaqon fevral ayında 2019-cu maliyyə ili üçün müdafiə büdcəsini Konqresə təqdim edib. Büdcədə həmçinin sərhəd təhlükəsizliyi üçün həmin qruplara 250 milyon dollarlıq yardım nəzərdə tutulub.

Məlum olduğu kimi, Vaşinqton Suriyada müharibə başladıqdan sonra hökumətə qarşı savaşan silahlı qrupları dəstəkləyirdi. Ancaq 2013-cü ildən sonra tədricən bu yardımlar azaldı və 2014-cü ildə Vaşinqton əsasən İŞİD-ə qarşı savaşan kürd qruplarını dəstəkləməyə başladı. Kürdlər Suriyanın şimalında İŞİD-in yayılması qarşısında manəə idi və Vaşinqton PYD-nin silahlı qanadı YPG-ni silah-sursat, maddi və digər istiqamətlərdə dəstəkləməyə başladı. 2016-cı ildə isə PYD digər etnik qruplarla birləşərək Suriya Demokratik Qüvvələri koalisiyasını yaratdı. Bu koalisiya Suriyanın şimalında İŞİD-ə qarşı savaşın əsas güclərindən biri oldu və Vaşinqton tərəfindən hərtərəfli şəkildə dəstəkləndi. Ötən ilin mayında ABŞ prezidenti İŞİD-in Suriyadakı "paytaxtı" Raqqa şəhərinə əməliyyatı dəstəkləmək üçün SDQ-yə və onun içərisində YPG-yə 300 milyon dollar dəyərində tank, zirehli maşınlar da daxil olmaqla silah və sursat verdi.

Ancaq bu dəstək Ankaranı narazı salır. Çünki, birincisi, Türkiyə PYD/YPG kimi təşkilatların PKK-nın Suriya qolu olduğunu və konkret olaraq terrorçu fəaliyyətlərlə məşğul olduğunu bəyan edir. Bu səbəbdən də Suriyadakı terror təşkilatına edilən yardımlar həm də Türkiyəyə birbaşa təhdid edir. YPG həm Suriya ərazisindən birbaşa Türkiyə ərazilərini hədəfə alır, həm də Türkiyə ərazisində fəaliyyət göstərən PKK-ya dəstək verməklə Türkiyəyə zərbə vurur. İkincisi isə, kürdlərin Suriyanın şimalında möhkəmlənməsi Türkiyə üçün Suriyanın gələcək siyasi taleyi baxımından əlverişsizdir. Çünki Türkiyə YPG-ni bu bölgədən çıxarmaq və dəstəklədiyi Suriya müxalifətinin nəzarət etməsini istəyir. Çünki belə olarsa, Suriya sərhədləri Türkiyə üçün daha etibarlı və mühafizə olunan olacaq, eyni zamanda Suriyanın gələcək taleyi siyasi müzakirələrə çıxarılarkən, Ankaranın dəstək verdiyi müxalifət daha güclü mövqedə olar və ölkənin siyasi keçid prosesində daha çox pay götürə bilər. Bu səbəbdən də Ankara Vaşinqtonun kürdlərə verdiyi dəstəyi dayandırmasını tələb edir.

Vaşinqton isə, təbii ki, Suriyanın şimalında kürdlər üzərindən daha ciddi siyasi layihələri həyata keçirmək istəyir. Söhbət kürdlərin Suriyanın şimalında muxtariyyət əldə etməsindən gedir. Hazırda ABŞ ordusunun Suriyanın şimalında 20-dək hərbi bazası var. Amma Tramp Suriyada ordu xərclərini ərəb ölkələrinin üzərinə yükləmək istəyir. Eyni zamanda ABŞ istəyir ki, ərəb ölkələri öz hərbçilərini regionda yerləşdirsin.

Bu həm də o deməkdir ki, ABŞ Suriyada məsuliyyəti öz üzərindən atmağa çalışır. Yəni ərəb ölkələrinin Suriyaya cəlb olunması Türkiyə üçün əlavə problemə səbəb olacaq. Çünki daha əvvəl bu mövzuda Vaşinqtonla anlaşmağa çalışan Ankara indi ərəb ölkələri ilə də dil tapmağa və onların şərtləri ilə razılaşmağa məcbur olacaq. Doğrudur, ekspertlər Vaşinqtonun bu tezliklə Suriyanı tərk edəcəyini inandırıcı saymır. Çünki ABŞ Suriya kimi aktiv bölgədən çəkilməklə İran və Rusiyanın güclənməsinə səbəb olmaq istəməz. Belə məlum olur ki, Tramp bununla hərbi xərcləri ərəb ölkələrinin üzərinə yükləməklə Vaşinqtonu Suriya müharibəsinin ağır yükündən xilas etməyə çalışır, digər tərəfdən də siyasi məsuliyyəti azaltmaq istəyir.

Belə görünür ki, 2019-cu ilin hərbi büdcəsində Suriyada İŞİD-ə qarşı savaşan qüvvələrə, yəni kürdlərə yardım nəzərdə tutulması ABŞ-ın ən azından qarşıdakı illərdə bölgədə olacağını və kürdlərə dəstək verməkdə davam edəcəyini göstərir. Özü də yalnız deyil, Avropa və ərəb ölkələrini də yanına alaraq.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**



## Atasından qalan bütün mirası narkotikə və əyləncəyə sərf etdi

Avstraliyalı Brodi Bond atasının külli miqdarda olan mirasını 9 ay ərzində xərcləyib. "Metro" nəşrinin xəbərinə görə, onun əsas xərcləri narkotik sahəsi üzrə olub. Bond atasının ölümündən sonra ona heç nə miras qoyulmaması ilə bağlı məhkəməyə müraciət edib və 220 min Avstraliya dolları mirası əldə edib. O, bu pulu heç yerə qoymaq istəməyb, əksinə, onu əyləncə və narkotikə sərf edib. Təxminən 150 min Avstraliya dolları metamfetamin alışına sərf olunub. Geridə qalan 70 min isə Bond spirtli içkiyə, geyim və maşına sərf edib. Və o, bu maşında qəza edib. Qadın ölən atası ilə bağlı bunları deyib: "Atam mənim həyatımda xüsusi iştirak etməsə də, bütün hallarda mənim atam olub. Yaşadığım faciəyə baxmayaraq, bundan özümə bir gəlir əldə etməliydim. Niyə də yox?"

## Bu ölkədə cins və pirsinq qadağan olundu

Şimali Koreya rəhbərliyi ölkədə pirsinqi və başda cins olmaqla "qərb geyimini" qadağan edib. Bu barədə "The Telegraph" xəbər verib. Vətəndaşların xarici görünüşünü və bu qadağalara əməl edib etməyəcəklərini müfəttişlər yoxlayacaq. Onlar daha çox küçələrdə müşahidə aparacaqlar. Xüsusi diqqət isə Şimali Koreyanın Hamqen və Yanqando əyalətlərinə veriləcək. Orada əhali xarici mədəniyyət trendlərinin təsiri altına daha çox düşür. Daha öncə hakimiyyət ölkə kişilərini öz saçlarını onun lideri Kim Çen İn kimi kəsməyə məcbur etmişdi. Qadınlara isə saçlarını birinci ledi Li Sol Cju kimi düzəltdirmək tapşırılmışdı.

# Gözün mavidirsə, spirtli içkiyə meyillisən...



ABŞ-ın Vermont Universitetində həyata keçirilən bir araşdırmada qəribə nəticələr əldə edilib. Araşdırmaya görə, göz rəngi mavi olan insanlar daha çox spirtli içki qəbul edirlər. Mavi gözlülər potensial alkoqolik olaraq təqdim olunur. Nəticələrə genetik araşdırmalar səbəb olub. "Focus Online"da yer alan xəbərdə qeyd edilir ki, mavi gözlülərlə paralel olaraq, gözü rəngli olanlar üçün də bu nəticə keçərlidir. Belə ki, insanlara göz rəngini verən genlər onların alkoqola meyilliliyinə də təsir göstərir. Amma alimlər onu da bildirib ki, araşdırmanın test nəticələri bu cür çıxsa da, bu sahədə daha ciddi araşdırmalar aparılmalıdır. Göz rəngi ilə xarakter arasında bir əlaqə olub-olmaması da araşdırmaların mövzularından biridir.

# Repetitor unikal köçürmə üsulu tapdı və məhkəməyə düşdü

**Sinqapurda repetitoru türmə təhlükəsi gözləyir. Buna səbəb onun şagirdlərə qəbul imtahanı zamanı köçürməyə yardım etməsidir. Bu haqda Bangkok Post nəşri xəbər verib. Repetitor Tan Jia Yanı bəzi şagirdləri haqsız yolla imtahan verməyə yardım etməkdə ittiham ediblər. Məhkəmə bu üsulları qeyri-adi olaraq adlandırıb. Belə ki, abituriyentlər videozənglər və mikroqulaqcıqalr vasitəsilə bir-biri ilə əlaqə yaradırdılar.**

Yan imtahana abituriyent qismində gəlib, imtahan suallları olan vərəqlərin şəklini telefona çəkib, sonra onu sinəsində gizlədərək ofisdəki həmkarlarına göndərib. Ofisdəki həmkarları isə o sualların cavablarını miktoqulaqcıqlar vasitəsilə şagirdlərə göndərirdilər.

Məhkəmə onu abituriyentlərə qanunsuz olaraq 27 dəfə yardım etdiyinə görə ittiham edib. 32 yaşlı qadını 3 ilə qədər türmə və cərimə gözləyir. Onun həmkarları da eyni zamanda məhkəmə qarşısına çıxıb və hazırda məhkəmə prosesi davam edir. Xəbərdə həmçinin qeyd olunur ki, məktəblilər qəbul imtahanlarını verə bilmədikləri halda, valideynlərə pulları geri qaytarılacaq.

Fərdi hazırlıq Sinqapurda geniş yayılıb. 4 məşğələ üçün 700 sinqapur dolları ödəmək lazımdır.



## Əliuşaqlı ana oğrunu döyüb mağazadan qovdu

Fransanın Kalvados bölgəsində qucağında azyaşlı uşağı olan qadın mağazaya girən oğrunu zərərsizləşdirib. Baş vermiş hadisənin videogörüntüləri youtube kanalında yayılıb. Qadın uşağı ilə mağazada alış-veriş edərkən içəri əlində silahı, üzü maskalı oğru girib. Qadın qucağındakı uşağı mağazanın arxa tərəfində bir yerə qoyaraq oğruya yaxınlaşıb və kassirdən israrla pul tələb edən oğrunu vurmağa başlayıb. Oğruya şillə, yumruq vuran qadın onu mağazadan çıxarmağa nail olub. Bununla da oğurluğun qarşısı alınıb. Hadisə mağazanın təhlükəsizlik kamerasına düşüb və insanlar baş verənləri saniyə-saniyə izləyib.

## Qoroskop




**QOÇ** - Yeni əməkdaşlıq üçün uğurlu vaxtdır. Ailə-sevgi münasibətlərində də hər şey zövqünüzlə uyğunluq təşkil edəcək. Günün ikinci yarısında şəxsi büdcənizin artacağı ehtimal olunur.

**BUĞA** - Şəxsi işlərinizdə böyük dönüş yaranmaqdadır. Bu səbəbdən də əzmkarlığınızı artırmağa çalışmalısınız. Qohum-qonşularla münasibətləri yaxşılaşdırmağa səy göstərin. Mülayim davranın.

**ƏKİZLƏR** - Yeni əlaqələrə başlamağa dəyər. Əgər gələcək perspektivlərinizə yetişmək istəyirsinizsə, boş dayanmayın. Onu da unutmayın ki, nəzərdə tutduğunuz planlara mane olmaq istəyənlər çoxdur.

**XƏRÇƏNG** - Qarşınızda səyahətə çıxmaq üçün ideal bir təqvim durur. Gərginliyi azaltmaq istiqamətində bu, ən yaxşı vasitələrdən ola bilər. Bütün hallarda bu gün qazanmaq üçün şansınız da var.

**ŞİR** - Yeni əlaqələrə başlamaq, işgüzar sövdələşmələri artırmaq gələcək perspektivləriniz üçün səmərəli ola bilər. Həmkarlarınızla dil tapın, gecəni isə mütləq öz evinizdə keçirin.

**QIZ** - Qərarlarınızda qətiyyətli olsanız, hansısa ciddi maneəyə rast gəlməyəcəksiniz. Bu gün kimisə aldatmağa çalışmayın. Günortadan sonra pul sövdələşmələrində iştirakınız uğurlu olacaq.

**TƏRƏZİ** - Gün ərzində qarşılaşacağınız hadisələrin aqibəti çıxardığınız qərarlardan birbaşa asılı olacaq. Odur ki, reallığa obyektiv qiymət verməyə, hər şeyi analiz etməyə çalışın.

**ƏQRƏB** - Saat 14-ə qədər hisslərinizi cilovlayıb mübahisəli situasiya yaratmasanız, sonrakı müddəti qənaətbəxş tərzdə başa vura biləcəksiniz. Çoxdan bəri gözlədiyiniz xəbərlər eşidəcəksiniz.

**OXATAN** - Vaxtınızın əsas hissəsini məhəbbət amilinə həsr edin. Çünki ulduzların düzümü son vaxtlar sevdiyinizə qarşı soyuqluq etməyinizi bəyan edir. Bu qüsuru aradan qaldırmağa çalışın.

**OĞLAQ** - Əmin olun ki, bu gün ulduzlar sizi daha çox sevindirəcək. Saat 13-dən sonra bir neçə sürprizlə rastlaşacaqsınız. Odur ki, evdə boş-boşuna oturmayın. Sevin ki, seviləsiniz.

**SUTÖKƏN** - Yaxşı olar ki, əsas gücünüzü istirahətə həsr edəsiniz. Hər hansı sövdələşmə və ya riskli addımlar mövqeyinizi əks etdirməyəcək. Ən yaxşı variant ürəyinizə yaxın adamlara baş çəkməkdir.

**BALIQLAR** - Bir qədər gərgin gün yaşamalı olacaqsınız. Bir tərəfdən maddi durumunuzda baş qaldıran problemlər, digər tərəfdənsə müttəfiqlərinizin başısoyuqluğu hiddətinizi artıra bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 5 dişini birdən çəkdirdi, öldü



Türkiyənin Samsun şəhərində 5 dişini birdən çəkdirdikdən sonra halı pisləşərək xəstəxanaya aparılan polis məmuru dünyasını dəyişib. Türkiyə mətbuatının yazdığına görə, 23 illik polis məmuru, 44 yaşındakı Yalçın Ağca 20 gün öncə bir dişinin müalicəsi üçün xəstəxanaya gedib. Burada 5 dişi birdən çəkilən polisin halı ordaca pisləşib. Lazımi müdaxilə edildikdən sonra polis evə göndərilib. Y.Ağcanın vəziyyəti həmin günün axşamında yenidən pisləşib və xəstəxanaya aparılıb. 20 günlük müalicədən sonra polis həyatını itirib. Hazırda kişinin ölümünə səbəb olan həkim səhvləri araşdırılır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.